# AZƏRBAYCAN DİLİ

## 1

TƏDRİS DİLİ

**DƏRSLİK**



2-ci hissə

 

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhmədd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Ülkər Nurullayeva
İradə Bayramova
Şəhla Zahidova
Nuriyə Allahverdiyeva
Aysel Xanalıyeva

# AZƏRBAYCAN DİLİ 1

TƏDRİS DİLİ

Ümumtəhsil məktəblərinin
1-ci sinifləri üçün

## DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi
artitrm2017@gmail.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!



2-ci hissə

# Mündəricat

## 5 NAĞILLAR ALƏMİNDƏ


| Fəsillər | səhifə |
|---|---|
| 1• NAĞILÇILAR | 6 |
| 2• XƏYAL DÜNYASI | 11 |
| 3• BİLƏNDƏRİN MACƏRALARI | 15 |
| 4• HEYVANLAR HAQQINDA NAĞILLAR | 19 |
| Ümumiləşdirici təkrar | 24 |




## 6 VƏTƏNİM AZƏRBAYCAN




| Fəsillər | səhifə |
|---|---|
| 1• VƏTƏN NƏDİR? | 26 |
| 2• VƏTƏNİMİZİ TANIYAQ | 30 |
| 3• VƏTƏNİMİZİ SEVƏK | 35 |
| 4• ÇAĞIRIR VƏTƏN! | 39 |
| Ümumiləşdirici təkrar | 42 |


## 7 YAXŞI NƏDİR, PİS NƏDİR


| Fəsillər | səhifə |
|---|---|
| 1• ANA MƏHƏBBƏTİ | 44 |
| 2• QARAGÖZÜN MACƏRASI | 48 |
| 3• MƏRHƏMƏT | 52 |
| 4• DOSTLUQ | 56 |
| Ümumiləşdirici təkrar | 60 |






## 8 DÜNYANI KƏŞF EDİRƏM


| Fəsillər | səhifə |
|---|---|
| 1• KEÇMİŞƏ SƏYAHƏT | 62 |
| 2• ÇÖRƏK | 67 |
| 3• CİZGİ FİLMLƏRİ | 72 |
| 4• KOSMOS | 77 |
| Ümumiləşdirici təkrar | 79 |

# 5 NAĞILLAR ALƏMİNDƏ



**1 A** Suallara cavab verməklə şəkillər üzrə danışın.

- Sizcə, bu bölmədə nə haqqında danışılacaq?
- Şəkillərdəki hansı obrazları tanıyırsınız?
- Hansı nağılları oxumusunuz?
- Sevimli nağıl qəhrəmanınız kimdir? Onun haqqında danışın.





fəsil 1

# NAĞILÇILAR

**B** **Şəkil əsasında kitabxana haqqında danışın.**




**C** **Nağıl kitabları necə yaranır? Mətni oxuyun və bu suala cavab verin.**

## BALALARA HƏDİYYƏ

Çox-çox illər bundan əvvəl bir müəllim vardı. Uşaqlara ana dilini öyrədirdi. Günlər, aylar keçdi. Şagirdlər yazıb-oxumağı öyrəndilər. Bir gün onlar müəllimə dedilər:

– Müəllim, biz artıq hərfləri tanıyırıq. Amma oxumağa kitabımız yoxdur.

Müəllim bunu eşidib dərin fikrə daldı. O, dəftər, qələm götürüb yola düzəldi. Şəhərləri, kəndləri qarış-qarış gəzdi. Babalardan, nənələrdən eşitdiyi nağılları, şeirləri bir yerə topladı. Onlardan bir kitab hazırladı.

**• Söz boğçası •**

- kitabxana
- rəf
- fikrə dalmaq
- yola düzəlmək
- qarış-qarış



Müəllim kitaba belə bir ad qoydu: "Balalara hədiyyə". Uşaqlar kitabı görüb çox sevindilər. Bu kitab Azərbaycanda uşaqların ən sevimli kitabı oldu.

Həmin müəllimin adı Firidun bəy Köçərli idi. Bu gün Azərbaycanda ən böyük uşaq kitabxanası onun adını daşıyır.

*Ülkər Rəhimqızı*




**Ç** **Mətndən aşağıdakı fikirləri təsdiq edən cümlələri seçin.**

- Keçmişdə uşaqlar üçün nağıl kitabları az idi.
- Nağılçılar qocalardan eşitdikləri nağılları yazıb kitab hazırlayırlar.

**2 A** **Şəklə aid cümlələr qurub yazın. Açar sözlərdən istifadə edin.**

AÇAR SÖZLƏR: *Cırtdan, nənə, dostlar, meşə, odun, icazə vermək, icazə istəmək, yağ-çörək, torba, getmək*



**• Faydalı məsləhət •** **NAĞILI NECƏ DANIŞIRLAR?**

**Adətən, belə başlayırlar:**
- *Biri vardı, biri yoxdu...*

**Ortada deyirlər:**
- *Günlərin bir günü...*

**Nağıl sona çatanda deyirlər:**
- *Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl söyləyənin.*

**B** **Qruplarla iş**

**Siz nənə-babalarınızdan hansı nağılları eşitmisiniz? Onlardan birini yoldaşlarınıza danışın.**

## 3 A Nağılı oxuyun. Nağılın hansı hissələri şəkillərdə təsvir olunub?

### AĞCA VƏ CIRTDANLAR



Biri vardı, biri yoxdu, Ağca adında gözəl bir şahzadə vardı. Onun ögey anası olan kraliça çox zalım idi. O istəmirdi ki, kimsə ondan gözəl olsun.

Bir gün kraliça güzgüsünə baxıb soruşdu:

– De görüm, dünyada məndən gözəli varmı?

Güzgü ona dedi:



– Kraliçam, sən çox gözəlsən, amma Ağca səndən də gözəldir.

Kraliça qəzəbləndi. Ağcanı meşədə azdırmağı əmr etdi. Keşikçilər əmri yerinə yetirdilər.

Ağca meşədə balaca bir daxma gördü. Sən demə, bu daxmada yeddi cırtdan yaşayırmış. Cırtdanlar Ağcanı görəndə sevindilər:

– Gözəl qız, bizimlə qal. Ev işlərində bizə kömək edərsən.

İndi isə sizə zalım kraliçadan danışım.

Kraliça yenə də güzgüsündən soruşdu:

– De görüm, ən gözəl kimdir?



– Kraliçam, sən gözəlsən, amma Ağca səndən də gözəldir.

Qəddar kraliça küpəgirən qarını çağırıb ona zəhərli alma verdi.

Qarı almanı götürüb cırtdanların daxmasına getdi, qapını döydü. Ağca evdə tək qalıb darıxırdı. Qarını içəri buraxdı ki, onunla bir az söhbət eləsin.

**• Söz boğçası •**

- azdırmaq
- daxma
- küpəgirən qarı
- qəddar

**B** **Ağca hansı təhlükəsizlik qaydasını pozur? Sizcə, onu hansı təhlükə gözləyir?**

**C** **Nağılda hansı sehrli əşya var? Onun sehri nədədir?**

**Ç** **Açar sözlərə uyğun obrazları tapın. Hər obraz haqqında bir cümlə qurun.**

*a) paxıl, zalım, qəddar*

*b) gözəl, mehriban, gülərüz*

*c) balaca, saqqallı, qonaqpərvər*

**• Xatırla •**

Əlamət bildirən sözlər *necə? nə cür? hansı?* suallarına cavab verir. Obraz haqqında danışarkən biz əlamət bildirən sözlərdən istifadə edirik.

**4 A** **Mətnin davamını oxuyun. Hadisələrin ardıcıllığına diqqət edin.**

Küpəgirən qarı zəhərli almanı Ağcaya verdi. Ətrafda uçuşan quşlar almanı onun əlindən yerə salmağa çalışdılar. Heç nədən xəbərsiz Ağca onları qovdu. Quşlar cırtdanlara xəbər apardılar.



Cırtdanlar gələndə artıq gec idi. Ağca almanı yeyib dərin yuxuya getmişdi. Cırtdanlar onun üçün qızıldan yataq hazırladılar. Gecə-gündüz Ağcanın keşiyini çəkdilər.



Günlərin bir günü bir şahzadə meşədən keçirdi. O, cırtdanların daxmasına girdi. Ağcanı görüb onun gözəlliyinə heyran oldu. Şahzadə Ağcanın əlindən tutdu. Elə bu vaxt Ağca gözlərini açdı.

O zamandan onlar xoşbəxt yaşadılar. Kraliçanı bir daha görən olmadı.

Göydən üç alma düşdü. Biri mənim, biri nağıl söyləyənin, biri də nağıl dinləyənin.

*Qrimm qardaşları*

**B** **Hadisələrin ardıcıllığını bərpa edərək nağılı danışın.**

*A) Ağca meşədə cırtdanlarla tanış oldu.*

*B) Kraliça Ağcanı meşədə azdırmağı əmr etdi.*

*C) Şahzadə Ağcanı oyatdı.*

*Ç) Küpəgirən qarı zəhərli almanı Ağcaya verdi.*

**5 A** “Ağca və cırtdanlar” nağılında hansı obrazlar var? Baş qəhrəman kimdir?

**B** Şəxs adlarını seçib cümlədə işlədin.

*oğlan, Fərid, müəllim, həkim, Yusif, Selcan, qardaş, bacı*

• Bunları bilməliyik • **ŞƏXS ADLARI HƏMİŞƏ BÖYÜK HƏRFLƏ YAZILIR**

| | |
|---|---|
| Cümlənin əvvəlində: | *Anar kitabxanaya getdi.* |
| Cümlənin ortasında: | *Dünən Anar kitabxanaya getdi.* |
| Cümlənin sonunda: | *Kitabxanaya get, Anar.* |

**C** Cümlələri köçürün. Şəxs adlarının altından xətt çəkin.

*Şəfiqə nağıl kitabı aldı.*
*Uşaqlar Firidun müəllimə təşəkkür etdilər.*
*Nənəm bizə Məlikməmmədin nağılını danışdı.*

**Ç** Cümlələri köçürün. Şəxs adlarını düzgün yazın.

1. *Qoca qarı fatmaya bir cüt qızıl başmaq verdi.*
2. *Hamı yatmış, cırtdan oyaq.*
3. *Küpəgirən qarı ağcaya zəhərli alma verdi.*

**D** Qruplarla iş

**Nağıl qəhrəmanlarından birini seçin. Onun haqqında fikir və arzularınızı yazın.**



## XƏYAL DÜNYASI

**1 A** **Kitabların cildlərinə baxın. Bu nağıllar haqqında bildiklərinizi danışın. Uçan xalça, sehrli çıraq, Simurq quşu nağıl qəhrəmanlarına necə kömək edirlər?**




**B** **Bu mətn nağıl qəhrəmanlarına kömək etmək istəyən qız haqqındadır. Sizcə, o buna necə nail ola bilər?**

Aylinin nənəsi hər axşam ona nağıl danışırdı. Artıq Aylinin sevimli nağıl qəhrəmanları var idi. Çox istəyirdi ki, onlar çətinliyə düşəndə köməyə çatsın. Arzulayırdı ki, uçan xalçası və sehrli çubuğu olsun.

Bir gün yuxudan oyananda gördü ki, yatağının qarşısında gözəl bir xalça var. Xalçanın üzərində isə sehrli çubuq par-par parıldayırdı.





**C** **Sizcə, Aylin sehrli əşyaları ilə Göyçək Fatmaya necə kömək edəcək?**

**Ç** **Bəs siz hansı nağıl qəhrəmanına kömək etmək istəyərdiniz? Bunu necə edərdiniz?**

**2 A Mətni oxuyun. Nağıldakı sehrli qüvvəyə diqqət edin.**

## SEHRLİ FIRÇA
*(Çin nağılı)*



Biri vardı, biri yoxdu, Yunşen adlı kasıb bir oğlan var idi. O, xəsis bir tacirin qoyun sürüsünü otarırdı. Bunun əvəzində tacir ona çox az pul və yeməyə quru çörək verirdi.

Bir gün Yunşen sürüsünü çəmənlikdə otarırdı. Qoca bir kişi ona yaxınlaşdı. Yorğun və ac görünürdü. Yunşen bağlamasındakı bir parça çörəyi ona verdi. Qoca kişi çörəyi yedi. Sağollaşanda torbasından par-par parıldayan bir fırça çıxarıb ona verdi.



Yunşen gül-çiçəkdən boya hazırladı. Sapsarı, hündür bir ot tayası çəkdi. Şəkil canlandı. İndi qarşısında əsl ot tayası var idi. Qoyunlar doyunca ot yedilər.

Hava çox isti idi. Gül-çiçək solmuşdu. Yunşen bulaq şəkli çəkdi. Təbiət yenidən canlandı. Qoyunlar da doyunca su içdilər.

Yunşen cürbəcür yeməklər çəkdi. Kənddə ac adam qalmadı. Hamı çox sevindi.

**• Söz boğçası •**
- tacir
- bağlama
- xəsis
- taya
- canlanmaq
- sürü

**B Cümlələri uyğunlaşdırın.**

| Yunşen nə etdi? | Nəticədə nə baş verdi? |
|---|---|
| 1. Ot tayası çəkdi. | a) Kənddə ac adam qalmadı. |
| 2. Bulaq çəkdi. | b) Qoyunlar doyunca yedilər. |
| 3. Yemək çəkdi. | c) Gül-çiçək canlandı. |

**C Nə üçün qoca kişi sehrli fırçanı məhz Yunşenə verdi?**
**Sizcə, sehrli fırça xəsis tacirin əlinə keçsə idi, o nə çəkərdi?**

**Ç Sizin sehrli fırçanız olsa, nə çəkərsiniz?**

**3 A** **Yunşen və tacir obrazları haqqında fikirlərinizi söyləyin. Nağılın davamını oxuyun və fikirlərinizə əlavələr edin.**

Günlərin bir günü tamahkar tacir fırçanı Yunşendən aldı. Tacir çoxlu qızıl şəkli çəkdi. Amma şəkildəkilər əsl qızıla çevrilmədi. Acgöz tacir Yunşenə əmr etdi:

– Tez ol, mənə qızıldan dağ çək!

Yunşen qızıldan dağ çəkdi. Dağın ətrafında isə dəniz çəkdi. Qızıllar dənizin ortasında qaldı. Tacir bunu görüb qəzəbləndi:

– Sən bilmirsən ki, mən üzə bilmirəm?

Yunşen gəmi şəkli çəkdi. Tacir gəmiyə minib qızılların yanına üzdü. Yunşen fırtına şəkli çəkdi. Dənizdə fırtına başladı. Fırtına acgöz taciri gəmi ilə birlikdə çox uzaqlara apardı.

Bundan sonra Yunşen xoşbəxt ömür sürdü. İnsanları da xoşbəxt etmək üçün şəkillər çəkdi.

Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl söyləyənin.

**• Söz boğçası •**
- tamahkar
- qəzəblənmək
- fırtına
- ömür sürmək

**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| xoşbəxt | xöşbəxt |
| dəniz | dənis |



**B** **Şəkillərin nağıla uyğun ardıcıllığını tapın.**




**C** **Sizcə, nə üçün tacirin çəkdiyi qızıl şəkilləri əsl qızıla çevrilmədi?**

**Ç** **Hadisələrin xeyirxahlığa, yoxsa tamahkarlığa aid olduğunu müəyyən edin.**

1. Yunşen qocaya çörək verdi. X / T
2. Tacir Yunşendən fırçanı aldı. X / T
3. Yunşen bulaq şəkli çəkdi. X / T
4. Tacir qızıldan dağ istədi. X / T

• Bunları bilməliyik • **ƏSAS FİKİR**

- Mətn oxuyarkən özümüzə sual verməliyik:

– **Müəllifin bu mətni yazmaqda məqsədi nədir?**
Beləliklə, mətndəki <u>əsas fikri</u> müəyyən edirik.



• Nümunə •

***Mətn:* Qartalın təşəkkürü.**
***Əsas fikir:* Yaxşılıq et ki, yaxşılıq görəsən.**



**D** **"Sehrli fırça"nağılındakı əsas fikri ifadə edən cümləni seçib oxuyun.**

*a) Yunşen şəkil çəkməyi xoşlayır.*

*b) Bütün tacirlər tamahkar olur.*

*c) Tamahkarlıq pis xüsusiyyətdir.*

**4 A** **Cümlələrdə söz sırasını sualların ardıcıllığına uyğun bərpa edin.**

*1. qəzəbləndi tacir xəsis* — Hansı? | Kim? | Nə etdi?

*2. fırça ilə çəkdi Yunşen gəmi* — Kim? | Nə ilə? | Nə? | Nə etdi?

*3. canlandı çiçəklər ətrafdakı* — Hansı? | Nələr? | Nə etdi?

**B** **Verilmiş cümləyə uyğun sual ardıcıllığını seçin.**

***Göydən üç alma düşdü.***

| | | | | |
|---|---|---|---|---|
| **A)** | *Harada?* | *Nə?* | *Nə etdi?* | |
| **B)** | *Necə?* | *Kim?* | *Nəyi?* | *Nə etdi?* |
| **C)** | *Haradan?* | *Neçə?* | *Nə?* | *Nə etdi?* |

**C** **Qruplarla iş**

**Nümunəyə baxaraq tapşırıqları yerinə yetirin.**

*1. Bir sehrli əşya xəyal edin.*
*2. Onun sehrini izah edin.*
*3. Əşyaya ad verin, şəklini çəkin.*
*4. Bu əşya ilə bağlı nağıl qurun.*

- *Mənim sehrli kitabım var.*
- *Nəyi isə başa düşməyəndə kitabım canlanır və izah edir.*



## BİLƏNDƏRİN MACƏRALARI

**1 A** **Cümlələri oxuyun. Cümlələrdə ifadə olunmuş fikirlərdən çıxış edərək fəslin mövzusunu təxmin edin.**

*Ağıl ağıldan üstün olar.* *Ağıl yaşda deyil, başdadır.*

**B** **Nağılı oxuyun. Baş qəhrəmanın xarakterini müəyyən edin.**

### BİLƏNDƏR VƏ VƏZİR
*(Azərbaycan nağılı)*

Günlərin bir günü Biləndər həyətdə oynayırdı. Gördü ki, bir nəfər ona tərəf gəlir. Sən demə, bu adam qonşu ölkənin vəziri imiş. Vəzir kənd və şəhərləri gəzir, sual-cavab yarışı keçirirdi. Həmişə də qalib gəlirdi. Vəzir Biləndərə yaxınlaşdı:

– Oğlan, bazar hansı tərəfdədir? Uzaq yoldan gəlib acmışam. Uzunqulağım da, xoruzum da acdır. Görəsən, nə alım ki, üçümüz də yeyək?

Biləndər dedi:

– Bazar bu tərəfdədir. Bizim tərəflərdə yaxşı qovun yetişir. Bazardan qovun alın. İçini özünüz yeyin. Tumlarını xoruza, qabığını isə uzunqulağa verin.

Vəzir Biləndərə baxıb düşündü:

– Bir yerin ki uşaqları bu qədər ağıllıdır, gör böyükləri necə olar?!

**• Söz boğçası •**
• vəzir • tum



**C** **Biləndər qovunu necə bölüşdürdü? Bəs siz yemək üçün vəzirə nə təklif edərdiniz?**

**Ç** **Nağılda hansı yarışın adı çəkilir? Nağılın məzmunu üzrə suallar hazırlayın. Sual-cavab yarışı keçirin.**

**D** **“Ağıllı” sözünü aid ola biləcəyi sözlərlə birlikdə dəftərinizə yazın.**

*uşaq, çiçək, vərəq, şagird, qız, şəkil, çanta, baş, fikir, dəftər*

Nümunə: *Ağıllı uşaq*

**2 A** **Biləndər haqqında növbəti nağılı oxuyun. Onun xarakterini müəyyən edin.**

## BİR PARÇA KÖZ

Bir gün Biləndərin anası samovar qaynatmaq istədi. Biləndər də kiçik taxta qırıntıları topladı, kömür gətirdi. Amma samovara atmağa köz yox idi. Biləndər Zəhra nənəgilə getdi. Ondan köz istədi:

– Zəhra nənə, anam samovarı qaynatmaq istəyir. Xahiş edirəm, bizə bir az köz verin.



Zəhra nənə dedi:

– Biləndər, bala, mən sənə köz verərəm. Amma közü nədə aparacaqsan?

– Əlimdə aparacağam, Zəhra nənə.

– Ay oğul, əlin yanar axı?!

Biləndər yerdən bir ovuc torpaq götürüb dedi:

– Narahat olma, nənə, qoy bu torpağın üstünə.

Zəhra nənə gülümsündü:

– Ay mənim ağıllı balam.

**• Söz boğçası •**

- kömür
- köz
- maşa
- od
- ovuc



**B** **Mətndəki fərqli rənglə verilmiş cümlələri oxuyun. Biləndər haqqında fikirlərlə uyğunlaşdırın.**

- *Biləndər nəzakətlidir.*
- *Biləndər məntiqlidir.*
- *Biləndər qayğıkeşdir.*

**C** **Biləndərin adı haqqında düşünün. Niyə onu belə adlandırırlar?**

**Ç** **Şəklə baxaraq “maşa” sözünü izah edin.**

**D** **Köz və kömür arasındakı fərqi müəyyənləşdirin.**

**3 A** **Şəkillərin ardıcıllığını müəyyən etməklə mətn qurub danışın.**

AÇAR SÖZLƏR: *baba, nənə, nəvə, qoyun, yun, ip, yumaq, corab, toxumaq*



**B** **Nağılı oxuyun. Yeni sözlərin iştirak etdiyi cümlələrə diqqət edin.**

## DAŞ PALTAR

Günlərin bir günü Biləndərgilin kəndinə düşmənlər hücum etmişdilər. Onlar kəndin adamlarına dedilər:

– Sizə bir təklifimiz var. Sabah kəndin ağıllı adamları meydana yığılsın. Onlara bir sual verəcəyik. Əgər suala cavab versələr, sizinlə işimiz yoxdur. Yox, cavab verə bilməsələr, kəndi sizdən alacağıq.

Səhəri gün hamı meydana toplaşmışdı. Biləndər də orada idi. Düşmən əsgərləri böyük bir daşı darta-darta meydana gətirdilər:

– Bizim padşahımız əmr edir ki, bu daşdan ona paltar tikəsiniz.

Hamı təəccüblə bir-birinə baxdı.

– Necə? Daşdan da paltar olar?

**• Söz boğçası •**

- yumaq
- hücum etmək
- təklif
- meydan



**C** **Cümlələrdə buraxılmış sözləri əlavə edib köçürün.**

1. *Anarın ... hamı bəyəndi.*
2. *Hamı ... toplaşmışdı.*
3. *Pişik rəngli ...  oynayırdı.*
4. *Düşmənlər kəndə ... ... .*

İSTİFADƏ ÜÇÜN SÖZLƏR:
*yumaqla, meydana,*
*hücum etdilər, təklifini*

**Ç** **Sizcə, kəndin adamları bu tapşırığın öhdəsindən necə gələcəklər?**

## 4 A Nağılın ardını oxuyun. Hadisələrin ardıcıllığına diqqət edin.

Biləndər irəli gəlib dedi:

– Daşdan paltar tikmək mənim üçün çətin deyil. Ancaq iynəm qırılıb. Sapım da qurtarıb.

Sonra o, yerdən bir ovuc qum götürüb dedi:

– Alın, bu qumdan mənim üçün iynə-sap düzəldin.

Padşahın adamları təəccüblə dedilər:

– Nə? Qumdan da iynə-sap olar?

– Çox yaxşı olar. Qumdan iynə-sap düzəldə bilməyən adam daşdan da paltar geyinməz.

Padşahın adamları pərt olub geri qayıtdılar. Hamı Biləndərin hazırcavablığına heyran oldu.



**B Mətndəki hadisələrin ardıcıllığını müəyyənləşdirib danışın.**

a) *Düşmənlər qəribə tapşırıq verirlər.*

b) *Biləndər düşmənlərə cavab verir.*

c) *Düşmənlər kəndə hücum edirlər.*

ç) *Düşmənlər pərt halda geri qayıdırlar.*

**C "Daş paltar" nağılına aid cümlələri oxuyun. Hərəkətlərin hansı obrazlara aid olduğunu söyləyin.**

- Biləndərgilin kəndinə hücum etmişdilər.
- Böyük bir daşı darta-darta meydana gətirdilər.
- Yerdən bir ovuc qum götürdü.
- Pərt olub geri qayıtdılar.

**Ç Hər bir əlamətə uyğun ad bildirən 3 söz yazın.**

• Nümunə •

**balaca**

- **balaca** uşaq
- **balaca** çanta
- **balaca** ev

| | | |
|---|---|---|
| şirin ... | maraqlı ... | böyük ... |
| şirin ... | maraqlı ... | böyük ... |
| şirin ... | maraqlı ... | böyük ... |

# HEYVANLAR HAQQINDA NAĞILLAR

**1 A** **"Ayı və dostları" nağılının qəhrəmanlarını yada salın. Heyvanlar haqqında daha hansı nağılları xatırlayırsınız?**

**B** **Nağılı oxuyun. Nağıl üçün yeni ad düşünün.**

## ŞİR VƏ DOVŞAN

*(nağıl)*



Biri var idi, biri yox idi, zalım bir Şir var idi. Əlinə düşən heyvanları parçalayıb yeyərdi. Heyvanlar onun əlindən lap bezmişdilər. Onlar qərara gəldilər ki, hər gün Şirə bir heyvan versinlər. Şir də yeyib doysun. Daha başqalarına toxunmasın. Şir onlarla razılaşdı.

Günlərin bir günü növbə Dovşana çatdı. Dovşan axşama kimi orada-burada gəzdi. Ac qalmış Şir bərk qəzəbləndi.

Axşam Dovşan Şirin yanına gəldi. Qəzəblənmiş Şir onu parçalamaq istədi.

Dovşan dedi:

– Məndə günah yoxdur. Sənə yağlı bir dovşan gətirirdim. Yolda bir şir əlimdən alıb yedi.

Bu sözləri eşidən Şir daha da hirsləndi:

– O kimdir ki, mənim payımı yeyir? Tez ol, yerini de. Gör onu necə parça-parça edirəm!

Dovşan Şiri dərin bir quyunun yanına gətirib dedi:

– Bax, burada yaşayır.

Şir quyuya baxanda suda öz əksini gördü. Elə bildi ki, onun payını yeyən şirdir. Özünü quyuya atdı. Bir daha da quyudan çıxa bilmədi. Heyvanların da canı zalım Şirin əlindən qurtardı.

**• Söz boğçası •**

- bezmək
- qərara gəlmək
- canı qurtarmaq





**C** **Nöqtələrin yerinə uyğun sözləri əlavə edib köçürün.**

- Heyvanlar Şirin əlindən ... .
- Heyvanlar toplaşaraq ... ... .
- Zalım və acgöz Şirin əlindən ... ... .

*canları qurtardı*
*qərara gəldilər*
*bezmişdilər*

**Ç** **Nağıldakı obrazların xarakterləri haqqında fikirlərinizi deyin.**

AÇAR SÖZLƏR: *qəzəbli, fərasətli, zalım, ağıllı, acgöz*

**D** **Aşağıdakı sualları cavablandırmaqla nağılı danışın.**

- Nağıl hansı hadisə ilə başlayır?
- Meşədəki heyvanlar hansı problemlə qarşılaşmışdı?
- Problem necə həll olundu?
- Nəticədə nə baş verdi?

**2 A** **Əsl dost olmaq üçün hansı xüsusiyyətlər vacibdir? Aşağıda verilmiş məsləhətlərə siz də əlavələr edin.**

- Kobud rəftar etmək olmaz.
- Əsl dost yalan danışmaz.
- Dost dostuna çətin anlarda kömək edər.

**B** **Nağılı oxuyun. Obrazların adlarını dəftərinizə qeyd edin.**

## TÜLKÜ VƏ LEYLƏK

*(Azərbaycan nağılı)*

Biri var idi, biri yox idi. Gölün kənarında, qalın bir meşədə Tülkü və Leylək yaşayırdı. Onlar mehriban qonşu idilər.

Günlərin bir günü Tülkü dovğa bişirmişdi. Leyləyi də qonaq çağırdı. Dovğanı dayaz boşqablara tökdü. Boşqabın birini özünün, birini də Leyləyin qabağına qoydu.



Leylək nə qədər çalışdısa, dovğanı içə bilmədi. Ha dimdiklədi, ağzına bir şey getmədi.

Tülkü isə boşqabı yalayıb dovğanın hamısını yedi. Qarnını sığallayıb dedi:

– Əcəb dadlıdır!

Leylək öz-özünə dedi:

– Yaxşı, Tülkü lələ, mən bunun heyfini səndən çıxaram!



**• Söz boğçası •**

- rəftar etmək
- heyif çıxmaq
- kuzə
- dayaz

**C** **Sizcə, Leylək Tülküdən heyif çıxmaq üçün nə edəcək? Şəklə baxaraq nağılın davamını təxmin edin və danışın.**

**Ç** **Leyləklə Tülkünün dostluğu niyə pozuldu?**

**D** **Sizcə, nə üçün dərsliyinizdə tapşırıqlar "A, B, C, ..." şəklində sıralanıb?**

**• Bunları bilməliyik •** **AZƏRBAYCAN ƏLİFBASI**

**Əlifba** – hərflərin sıra ilə düzülüşüdür. Hər hərfin öz adı var.

| Hərf | Adı | Hərf | Adı | Hərf | Adı | Hərf | Adı |
|---|---|---|---|---|---|---|---|
| 1. A a | a | 9. G g | ge | 17. Q q | qe | 25. Ss | se |
| 2. B b | be | 10. Ğ ğ | ğe | 18. L l | el | 26. Ş ş | şe |
| 3. C c | ce | 11. H h | he | 19. M m | em | 27. T t | te |
| 4. Ç ç | çe | 12. X x | xe | 20. N n | en | 28. U u | u |
| 5. D d | de | 13. I ı | ı | 21. O o | o | 29. Ü ü | ü |
| 6. E e | e | 14. İ i | i | 22. Ö ö | ö | 30. V v | ve |
| 7. Ə ə | ə | 15. J j | je | 23. P p | pe | 31. Y y | ye |
| 8. F f | fe | 16. K k | ke, ka | 24. R r | er | 32. Z z | ze |

**E** **Əlifba sırasında hər bir hərfdən sonra gələn hərfin adını deyin.**

**N, ..., D, ..., C, ..., V, ..., A, ..., Y, ..., B, ..., R, ..., U, ...**

**Ə** **Saitlərin sıra nömrələrini dəftərinizə yazın.**

**A** – 1, **E** – 6, **Ə** –..., **I** – ..., **İ** – ..., **O** - ..., **Ö** – ..., **U** – ..., **Ü** – ...

**F** **Biləndər sizə mesaj göndərib. Hərflərin əlifbadakı sıra nömrələrindən istifadə edərək mesajı oxuyun.**

| | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 19 | 7 | 20 | | 20 | 1 | 10 | 13 | 18 | 18 | 1 | 24 | 13 | | 25 | 6 | 30 | 14 | 24 | 7 | 19. |
| M | ə | n | | | | | | | | | | | | | | | | | | |

**G** **Qruplarla iş**

**Hərflərin əlifba sırasından istifadə etməklə nağıl adlarını kodlaşdırın.**

I qrup: "Tülkü və Leylək"
III qrup: "Ayı və dostları"
II qrup: "Şir və Dovşan"
IV qrup: "Yarış"

**3 A** **Nağılı oxuyun. Əsas fikrə uyğun yeni başlıq düşünün.**

## GÖYƏRÇİN VƏ QARIŞQA

*(Azərbaycan nağılı)*



Bir gün Göyərçin çay qırağına su içməyə getmişdi. Gördü ki, suya bir Qarışqa düşüb çapalayır. Göyərçin tez onun köməyinə gəldi. Dimdiyinə yarpaq alıb suya atdı. Qarışqa yarpaqdan yapışıb sahilə çıxdı.

O, Göyərçinə dedi:

– Məni ölümdən qurtardın. Bir gün olar, mən də sənə kömək edərəm.

Göyərçin Qarışqanın sözünə güldü:

– Sən çox balacasan...

Həmin vaxtdan xeyli keçmişdi. Göyərçin yuvasında oturmuşdu. Bir ovçu kolların arxasında gizlənmişdi. O, Göyərçini ovlamaq istəyirdi. Bunu görən Qarışqa ovçunun üstünə dırmaşdı. Yavaş-yavaş boynuna doğru qalxdı. Ovçu tüfəngini qaldıranda Qarışqa onun boynundan bərk dişlədi. Tüfəng ovçunun əlindən yerə düşdü. Göyərçin uçub canını qurtardı. O, Qarışqaya dedi:

– Bağışla, dost...



**B** **Sizcə, aşağıdakı cümlələr hansı obrazlara aid ola bilər?**

1. *Mənə necə kömək edəcəksən?* *Qarışqa/Göyərçin*
2. *Balaca olmağıma baxma, çox ağıllıyam.* *Qarışqa/Göyərçin*
3. *Bir vaxt sənə "balacasan" deyib gülmüşdüm.* *Qarışqa/Göyərçin*

**C** **Şəkil əsasında nağıl qurub danışın. Sizcə, Siçan Şirə necə kömək edə bilər?**

AÇAR SÖZLƏR: *Şir, Siçan, ovçular, tor, iti dişlər, kəsmək, xilas etmək*



**Ç** **Heyvan obrazları ilə onların xarakterlərini uyğunlaşdırın.**

| | |
|---|---|
| şir | ağıllı |
| tülkü | kobud |
| ayı | güclü |
| kirpi | hiyləgər |

**D** **Obrazların adlarını əlifba sırasına uyğun yazın.**

Şir, Dovşan, Ayı, Qarışqa, Göyərçin, Tülkü, Leylək, Siçan

**E** **"Ka" hərfinin işləndiyi sözləri seçib yazın.**

*kitab, kənd, konfet, park,*
*kök, karandaş, kosmos*

• Xatırla • K hərfi

| ke | ka |
|---|---|
| kitab | kart |

# Ümumiləşdirici təkrar

**4 A** **Bu bölmədəki fəsillər sizə nəyi öyrətdi? Uyğunlaşdırın.**

1. Xəyal dünyası
2. Nağılçılar
3. Biləndərin macəraları
4. Heyvanlar haqqında nağıllar

**ÖYRƏTDİ**

a) Problemləri ağıl, fərasət və hazırcavablıqla həll etmək olar.

b) Bir çox nağıllarda sehrli əşyalara rast gəlirik.

c) Şir obrazı gücün, tülkü hiylədgərliyin, kirpi ağılın simvoludur.

ç) Firidun bəy Köçərli “Balalara hədiyyə” kitabının müəllifidir.

**B** **Şəxs adlarını düzgün yazmaqla cümlələri köçürün.**

- Kraliça qarını ağcanın yanına göndərdi.
- Acgöz tacir yunşenə əmr etdi.
- Közü necə aparacaqsan, biləndər?

**C** **Boşluqlara əlavələr etməklə hərfləri əlifba sırası ilə sadalayın.**

A, ..., C, ..., D, ..., Ə, ..., G, ..., H, ..., ..., İ, ..., K,
Q, ..., ..., N, ..., Ö, P, ..., S, ..., T, ..., Ü, V, ..., Z.

**Ç** **Şəklə uyğun bir neçə açar söz yazın.**
**Açar sözlərin iştirakı ilə cümlələr qurun və əsas fikri müəyyən edin.**



# 6 VƏTƏNİM AZƏRBAYCAN





**1 A** Şəkillərə baxın və suallara cavab verin.

1. Yaşadığınız ölkənin adı nədir?
2. Azərbaycanın hansı yerlərində olmusunuz?
3. Şəkildə gördüyünüz yerlər haqqında bildiklərinizi danışın.











# VƏTƏN NƏDİR?

**B** **Şəkillərə baxın və gördüklərinizi müqayisə edin.**
- Sizcə, balıqlar üçün doğma yer haradır: akvarium, yoxsa dəniz?
- Bəs quşların doğma məskəni haradır: qəfəs, yoxsa səma?

**Söz boğçası**
- akvarium
- qəfəs
- məskən
- doğma
- çəmən
- pətək






**C** **Şeiri oxuyun. Şəklə əsasən şeiri davam etdirin. Sizcə, arı, quş, kəpənək nə deyərdi?**



## ƏN GÖZƏL YER

Təbiətə baxaraq
Belə sual verdim mən:
– Ən gözəl yer haradır
Bu dünyada, görəsən?

Ağac dedi: – Torpaqdır.
Quzu dedi: – Çəməndir.
Yarpaq dedi: – Budaqdır.
İnsan dedi: – Vətəndir.

*Rafiq Yusifoğlu*

**2 A Dinləmə**

**Hansı şəkildə Lalə öz vətənində təsvir olunub?**





**B Mətni oxuyun. Hadisələrin baş verdiyi yerə diqqət edin.**

### ŞAH VƏ BAĞBAN

Şah və adamları gəzintiyə çıxmışdılar. Xeyli gəzib bir kəndə çatdılar. Kənd daşlı-qumlu ərazidə idi. Heç bir həyətdə ağac görünmürdü. Kəndin ayağına çatanda gözlərinə inanmadılar. Burada başdan-başa yaşıllığa bürünmüş gözəl bir bağ var idi. Şah dedi:

– Gedin, bu bağı yaradan adamı mənim sarayıma gətirin.

Bunu deyib şah öz yoluna davam etdi.

Şahın adamları bağbanın yanına gəlib dedilər:

– Şah bizi sənin dalınca göndərib. Bu gündən şahın bağbanı olacaqsan.

Bağban etiraz etdi:

– Mən yaşlı adamam. Bu yaşımda el-obamdan ayrıla bilmərəm. Məndən şaha bağban olmaz.

**Söz boğçası**
- ərazi
- el-oba



**C Sizcə, bağban şahın sarayına niyə getmək istəmirdi? Bağbanın yerində olsa idiniz, siz şah sarayına gedərdinizmi?**

**Ç Hekayənin ardını təxmin edin. Sizcə, bundan sonra hadisələr necə davam edəcək?**

**3 A** **Hekayənin davamını oxuyarkən bu suallara cavab axtarın.**



?
- *Şahın adamları bağbanı hara apardılar?*
- *Bağban şahın bağına necə qulluq etdi?*
- *Şah bağbandan niyə üzr istədi?*

Şahın adamları bağbanı zorla faytona mindirib saraya apardılar.

Bağban şahın bağını gözəlləşdirmək üçün çox çalışdı. Ancaq öz bağı kimi bağ yarada bilmədi. Şah bağbanı yanına çağırıb soruşdu:

– Sənin yaşadığın kənd daşlı-qumlu yerdir. Amma orada gözəl bağ salmısan. Buranın torpağı isə bərəkətlidir. Niyə buranı gözəlləşdirə bilmirsən?

– Şahım, mən o kənddə doğulub böyümüşəm. Oranın qumunu da, daşını da sevirəm. Mən torpağa, bağa olan sevgimi doğma kəndimdə qoyub gəlmişəm. Ona görə də buranı sevə bilmirəm. Səbəbi budur.

Şah etdiyi əməlinə görə xəcalət çəkdi. Bağbanı vətənindən ayırdığı üçün ondan üzr istədi, onu hörmətlə öz kəndinə yola saldı.

*Məhərrəm Mustafa*

**B** **Mətndəki əsas fikri müəyyən edin.**

**• Söz boğçası •**
- fayton
- bərəkətli
- xəcalət çəkmək
- üzr istəmək

**C** **Bağban öz kəndini, el-obasını, torpağını, bağını sevir. Bu onun hansı xüsusiyyətini göstərir?**

*a) tamahkarlığını* *b) zəhmətkeşliyini* *c) vətənpərvərliyini*

**Ç** **"Şah və bağban" mətnini aşağıdakı plan əsasında nəql edin.**

1. *Şahın gəzintisi.*
2. *Bağbanın şahın adamlarına cavabı*
3. *Bağbanın şah sarayına aparılması.*
4. *Bağban şah sarayında.*
5. *Şahla bağbanın söhbəti.*

**• Bunları bilməliyik •** **MƏTNİN PLANI**

Mətni nəql etmək üçün əvvəlcə plan qurulur.
Planda mətndəki hadisələr qısa şəkildə ifadə olunur.

## 4 A Şəkillərdən və açar sözlərdən istifadə etməklə hekayə qurun.




**• Söz boğçası •**

• qəmgin • azad etmək • kolluq • şən • nəğmə • igid • qərib • mərd • qürbət

## B Şeirləri oxuyun. Vətənpərvərlik mövzusunda olan şeirləri seçin.

Bağçamızda gül bitdi,
Lalə bitdi, gül bitdi,
Vətəndə bir bağ saldıq,
Hər nə əkdik, gül bitdi.

*

Sular gələr, göl dolar,
Şaxta vurar, gül solar.
Mərd igidin balası
Özü kimi mərd olar.

Gedirəm, yolum dağdır,
Əcəb meyvəli bağdır.
Yolunu mən gözlərəm,
Nə qədər canım sağdır.

*

Qəribəm, yoxdu arxam,
Qanadım yoxdu, qalxam.
Çıxam uca dağlara,
Bir vətən sarı baxam.

## C Qruplarla iş

**Şeirlərdən biri üzrə aşağıdakı suallara cavab verin.**

*1. Şeir neçə misradan ibarətdir?*
*2. Hər misrada neçə heca var?*
*3. Hansı misralar qafiyələnir?*
*4. Hansı misralar şeirdəki əsas fikri ifadə edir?*

**• Xatırla •**

• **Qafiyə** – misraların sonunda oxşar səslənən sözlərdir.

# VƏTƏNİMİZİ TANIYAQ

**1 A Azərbaycan xəritəsi üzərində verilən şəkilləri adlandırmaqla Azərbaycanın bölgələri barədə danışın.**




**B Şeiri oxuyun, tanış olmayan sözləri dəftərinizdə qeyd edin.**

## AZƏRBAYCAN

Gəzdim sənin çöllərini
Oba-oba, oymaq-oymaq.
Nə gözəlmiş qoynun sənin,
Ana torpaq, ana torpaq!

Astarada, Lənkəranda
Limonların rəngi sarı,
Süfrələrin bəzəyidir
Göyçayımın qızıl narı.

Quba, Qusar, gözəl Xaçmaz
Xatırladır ilk baharı.
Bağlarının şöhrətidir
Gülyanaqlı almaları.

Çıxdım Şuşa yaylağına,
Çeşmələrdə gözüm qaldı.
Endim İsa bulağına,
Cığırlarda izim qaldı.

*Xəlil Rza Ulutürk*

**Söz boğçası**

- oba
- oymaq
- yaylaq
- şöhrət
- cığır
- çeşmə

**C** **Şeirdə hansı meyvənin adı çəkilmir?**



**Ç** **Şeirdən yer adlarını seçin. Onların ilk hərfinə diqqət edin. Dəftərinizdə əlifba sırası ilə yazın.**

• Bunları bilməliyik • **YER ADLARININ YAZILIŞI**

Dilimizdə elə sözlər var ki, yer mənası bildirir. Məsələn: *şəhər, dağ, göl*. Yerləri bir-birindən fərqləndirmək üçün onlara xüsusi ad verilir. Məsələn: *Bakı (şəhər), Kəpəz (dağ), Göygöl (göl)*. Belə adların ilk hərfi həmişə böyük yazılır. Məsələn: *Kür Azərbaycanın ən böyük çayıdır.*

**D** **"Azərbaycan" şeirinə əsasən mavi rəngli boşluqlara yer adları əlavə etməklə cümlələri köçürün.**

1. Astara, ______ limonun, ______ narın vətənidir.
2. İsa bulağı ______ yaylağında yerləşir.
3. Quba, ______, ______ almaları ilə şöhrət qazanıb.

**E** **Yaşadığınız yerlə (kənd, şəhər, rayon) bağlı araşdırma aparıb təqdimat hazırlayın. Araşdırma zamanı bu suallara cavab tapın.**

- Yaşadığınız yerdə çay, göl, dağ varmı?
- Yaşadığınız yerdə hansı abidələr var?
- Yaşadığınız yer hansı məhsulu ilə məşhurdur?
- Yaşadığınız yerin tanınmış şəxsləri kimlərdir?

**2 A** **Azərbaycanın hansı dövlət rəmzləri var? Şəklə baxın. Sizcə, şagirdlər nə ifa edirlər?**



**B** **Şeiri oxuyun. Tanış olmayan sözləri dəftərinizdə qeyd edin.**

### ÜÇRƏNGLİ BAYRAQ

Bu üçrəngli bayrağım
Gözümün işığıdır.
Azadlıq yağışından
Doğan göyqurşağıdır.

Üstündəki ay-ulduz
Gəlir mənim xoşuma.
Ay üzüyə bənzəyir,
Ulduz onun qaşına.

Üçrəngli bayraq bizə
Təsəllidir, dayaqdır.
Yolumuzun üstünə
İşıq saçan mayakdır.

*Rafiq Yusifoğlu*



**• Söz boğçası •**

- gözümün işığı
- üzüyün qaşı
- təsəlli
- mayak

**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| bayraq | bayrax |
| üzük | üzüy |
| üçrəngli | üçrənkli |

**C** **Bayrağımızın rəngləri və üzərindəki nişanların mənaları barədə danışın.**

**Ç** **Göyqurşağı haqqında bildiklərinizi xatırlayın. Şair hansı əlamətlərinə görə bayrağımızı göyqurşağına bənzədir?**

**D** **Şəkillərə baxın. Onların oxşar xüsusiyyətini müəyyən edin. Bu oxşarlıq şeirin hansı bəndində təsvir olunub?**





**E** **Şeirin son misralarından və şəkildən istifadə edərək "mayak" sözünü izah edin. Sizcə, nə üçün şair bayrağımızı mayaka bənzədir?**



**Ə** **Hər bir sözə yaxınmənalı olan söz seçin.**

| | | | |
|---|---|---|---|
| 1. XOŞUNA GƏLMƏK | sevinmək | bəyənmək | şad olmaq |
| 2. BƏNZƏMƏK | gözləmək | birləşmək | oxşamaq |

**3 A** **Azərbaycanın gerbində nə təsvir olunmuşdur? Hansı təsvirlərin mənasını bilirsiniz?**



**• Söz boğçası •**

- möcüzə
- qüllə
- polad
- dirək
- ada
- sərvət

**B** **Şəkildə gördüyünüz üç hündür bina birlikdə nəyi xatırladır? Sizcə, nə üçün Azərbaycana “Odlar yurdu” deyilir?**



**C** **Mətnin adını oxuyun. Mətnə aid şəkildə gördüyünüzü möcüzə hesab etmək olarmı? Şəkli izah etməklə fikrinizi əsaslandırın.**

## MÖCÜZƏLƏR ADASI



Bu şəhərcik Xəzər dənizində yerləşir. Onun adı Neft daşlarıdır. İnsanlar bu şəhəri polad dirəklər üzərində qurmuşlar. Ona görə də buranı “möcüzələr adası” adlandırırlar.

Bu şəhərdə neftçilər yaşayırlar. Onlar dənizin dərinliyindən neft çıxarırlar. Neft Azərbaycanın sərvətidir. Azərbaycan dünyada Odlar yurdu kimi tanınır.

**Ç** **Neft daşlarını nə üçün “möcüzələr adası” adlandırırlar?**

**D** **Bu şəkildə Bakı şəhərinin rəmzi təsvir olunub. Sizcə, niyə Bakı şəhəri üçün belə bir rəmz seçilib?**



**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| neftçi | nefçi |
| polad | polat |
| dirək | dirəy |

**4 A** **Şəkildə nə görürsünüz? Bura haradır?**
**Siz də sərgilərdə iştirak etmisinizmi? Bu haqda danışın.**




*Gəlin tanış olaq. Mənim adım Nigardır. Mən “Vətənim – Azərbaycan” adlı rəsm müsabiqəsində iştirak edirəm.*

**• Söz boğçası •**
- müsabiqə
- sərgi
- təqdim etmək

**B** **Nigarın çəkdiyi rəsmə baxın və suallara cavab verin.**



1. *Bu rəsmin mövzusu nədir?*
2. *Nə üçün Nigar bu müsabiqəyə belə bir şəkil təqdim etmişdir?*
3. *Şəkildə Novruz bayramına aid daha nələr təsvir oluna bilərdi?*

**C** **Novruz bayramı ilə bağlı olan sözləri tapın.**
*dəniz, tonqal, xonça, səməni, qaranquş, qoğal, payız, yolka, bahar, kosa, papaq, paxlava, qoz, qarpız, yumurta, şəkərbura*

**Ç** **Qruplarla iş**

**Şəkildə gördüklərinizin hazırlanma qaydalarını müzakirə edin. Daha sonra qruplara ayrılaraq bu qaydalarla bağlı təlimat hazırlayın.**

| 1-ci qrup | 2-ci qrup | 3-cü qrup | 4-cü qrup |
|---|---|---|---|
|  |  |  |  |

**• Bunları bilməliyik •** **TƏLİMAT NECƏ YAZILIR**

- **Təlimatda** hər hansı əşyanı hazırlamaq üçün qaydalar göstərilir. Görüləcək işlər ardıcıllıqla sadalanır və nömrələnir.

# VƏTƏNİMİZİ SEVƏK!

**1 A Şeiri oxuyun. Şəkillərin köməyi ilə şeirin məzmununu izah edin.**

"Vətənim" demək azdır,
Vətənin olmaq gərək.
Vətəni sevmək azdır,
O sevə səni gərək.
*Cabir Novruz*





**B Vətənə sevgimizi bildirmək üçün nə etməliyik?**

**C Mətni oxuyun. Tanış olmayan sözləri dəftərinizdə qeyd edin.**

## ZÖHRƏNİN QƏLƏBƏSİ



Gimnastika üzrə beynəlxalq yarış keçirilirdi. Bura dünyanın müxtəlif ölkələrindən gimnastlar gəlmişdilər. Azərbaycanı Zöhrə adlı bir qız təmsil edirdi.

Yarışın başlanmasına az qalırdı. Zöhrə çox həyəcanlı idi. Məşqçisi, valideynləri, çoxlu sayda azarkeşləri onu qələbəyə ruhlandırırdılar:

– Biz səninləyik, Zöhrə! Bu gün burada Azərbaycanın himnini səsləndir!

Zöhrə əlində tutduğu üçrəngli bayrağı öpdü, sonra sinəsinə sıxıb dedi:

– Gözəl bayrağım, səni yüksəyə qaldıracağıma söz verirəm.

**• Söz boğçası •**

• gimnast • beynəlxalq • təmsil etmək • azarkeş • ruhlandırmaq

**Ç Gimnastımızı qələbəyə səsləmək üçün siz nə deyərdiniz?**

**2 A Mətnin davamını oxuyun. Tanış olmayan sözləri dəftərinizdə qeyd edin.**

Zöhrənin halqa və lent ilə çıxışları uğurlu oldu. Lakin topla çıxış edərkən ayağı büdrədi, topu yerə saldı. Bu onun balını azaltdı. İndi qızıl medal qazanmaq üçün Zöhrənin sonuncu şansı qalmışdı. Lentlə çıxışda o ən yüksək bal yığmalı idi. O, bütün iradəsini toplayıb məharətlə çıxış etdi. Azarkeşlərin alqışları altında səhnəni tərk etdi.



Zöhrə və məşqçisi həyəcanla tabloya baxırdılar. Nəhayət, Zöhrənin adı qarşısında onun balı yazıldı: 10.

Məşqçisi Azərbaycan bayrağını Zöhrənin çiyninə saldı və dedi:

– Təbrik edirəm. Sən qalibsən!

Zöhrə rəqibləri arasında ən hündür kürsüdə dayandı. İdman arenasında Azərbaycan bayrağı himnimizin sədaları altında ən yüksəyə qalxdı.

*Aysel Fazilqızı*

**• Söz boğçası •**

• şans • iradə • tablo • məharət • bal • kürsü • idman arenası • rəqib

**B Şəkil mətnin hansı hissəsinə aiddir?**

**C Mətndə hansı gimnastika alətlərinin adları çəkilir?**

**Ç Tabloya baxaraq mətni genişləndirin.**

**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| rəqib | rəqip |
| məşqçi | məşkçi |
| gimnast | gimnas |
| himn | himin |

**Ölkələr üzrə**

NƏTİCƏLƏR

| | | |
|---|---|---|
| 1 | Azərbaycan | 10.000 |
| 2 | Çin | 09.000 |
| 3 | Ukrayna | 07.000 |
| 4 | Gürcüstan | 06.000 |
| 5 | İran | 05.000 |

**D Bir sənət növü seçin (idmançı, rəqqas, müğənni, rəssam...).**
**Seçdiyiniz sənət növü ilə vətəninizi xarici ölkələrdə necə təmsil edərsiniz?**

**3 A** **Biz hansı dildə danışırıq? Başqa hansı dilləri tanıyırsınız? Biz nə üçün danışdığımız dilə "ana dili" deyirik?**

**B** **Şeiri oxuyun. Şeirin hansı bəndi şəklə uyğundur?**

## ANA DİLİM

Ana dilim bal kimi,
Danışmaqdan doymuram.
Mən onu neçə dilin
İçində qoruyuram.

Anamın laylasıyla
Mən boy atıb böyüdüm.
Onun şirin diliylə
Fərəhlənib öyündüm.



Çoxlu nağıl söyləyib
Nənəm bu dildə mənə.
Əlifbanı öyrəndim
Mən sevinə-sevinə.

Çox sevirəm yurdumun
Bayrağını, himnini.
Mən sevirəm anamı,
Həm də ana dilimi.

*Mina Raşid*

**C** **Aşağıdakı misraları izah edin.**

Mən onu neçə dilin
İçində qoruyuram.

**• Söz boğçası •**
- layla
- boy atmaq
- fərəhlənmək
- öyünmək

**Ç** **Hansı bənddə qafiyələnən sözlər ad bildirir?**

**D** **Aşağıdakı laylanı oxuyun. Suallara cavab verin.**

A laylay, gülüm, laylay,
Gülüm, bülbülüm, laylay.
Böyü, sənin sayəndə
Mən də bir gülüm, laylay.

- **Laylada ana balasına necə müraciət edir? Ona nə arzu edir?**
- **Hansı misrada "gülüm" hərəkət bildirir?**

**E** **Ana və nənələrinizdən laylalar öyrənib dəftərinizə yazın.**

**4 A** **Muzeydə olmusunuzmu? Gördüyünüz əşyalar barədə danışın. Sizcə, nə üçün qədim əşyaları muzeydə saxlayırlar?**



**• Söz boğçası •**

- muzey
- eksponat
- əcnəbi
- turist
- çul
- yadigar
- hiylə işlətmək
- təşvişə düşmək

**B** **Mətni oxuyun. Mətndəki əsas fikri müəyyən edin.**



Bir əcnəbi turist kəndə gəzintiyə çıxır. Yolda bir uzunqulaq görür. Uzunqulağın üstündə milli naxışlı qədim, köhnə bir çul var idi. Belə qədim əşyalar çox qiymətli hesab olunur. Turist çulu almaq istəyir. Ancaq fikirləşir ki, kəndli onu satmaz. Odur ki hiylə işlədir.

Turist kəndliyə deyir ki, uzunqulağı almaq istəyir. Kəndli təəccüblənsə də, onu satmağa razı olur. Turist çox sevinir. Tez çıxarıb kəndliyə xeyli pul verir. Kəndli uzunqulağın üstündəki çulu götürür və uzunqulağı ona verir. Əcnəbi təşvişə düşür, kəndliyə deyir:

– Uzunqulaq zəifdir, üşüyəcək. O köhnə çulu da ver, üstünə ataq.

Kəndli qətiyyətlə cavab verir:

– Yox! Onu verməzəm. Siz məndən uzunqulağı almısınız, çulu yox. O mənim babamdan yadigar qalıb. Dədə-babadan xatirədir, verə bilmərəm!

*Əziz Nesin*

**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| muzey | müzey |
| turist | turis |
| eksponat | ekspanat |

**C** **Nə üçün kəndli köhnə çulu satmadı?**

**Ç** **Mətnə ad qoyun.**

**D** **Sizin evdə də qədim əşyalar varmı? Bu barədə araşdırma aparın. Böyüklərdən bu əşyaları nə üçün qoruyub-saxladıqlarını soruşun.**

•fəsil• 4

# ÇAĞIRIR VƏTƏN!

**• Söz boğçası •**
- niyyət
- qəm
- ordu
- fəxr etmək
- işğal etmək

**1 A** **Açar sözlərdən istifadə edərək şəkli təsvir edin. Fəslin adını oxuyun və onu izah edin.**

AÇAR SÖZLƏR: *qəhrəman, əsgər, ordu, düşmən, vətən, qorumaq*





**B** **Nəyə görə Mübariz İbrahimov kimi qəhrəmanlarımızla fəxr edirik?**

**C** **Şeiri oxuyun. Suallara cavab verin.**

## ÇAĞIRIR VƏTƏN!

Çağırır Vətən,
İstəyir kömək!
Onu düşməndən
Qorumaq gərək!

Kim pis niyyətlə
Gəlsə ölkəmə,
Bu torpaq onu
Batırar qəmə!

*Abdulla Şaiq*

**•Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| kömək | köməy |
| torpaq | torpax |

?
- *Şeirin adı nədir?*
- *Müəllifi kimdir?*
- *Müəllif kimi köməyə çağırır?*

**Ç** **Şeirdə qafiyələnən sözləri seçib dəftərinizə köçürün. Bir neçəsini də özünüz əlavə edin.**

**D** **İşğal altında olan rayonlarımız haqqında araşdırma aparın. Həmin yer adlarını dəftərinizdə yazıb təqdim edin.**

**2 A** **Şəkildə nə görürsünüz? Sizcə, evlər niyə dağılıb? Mətni oxuyun. Təxmin etdiyiniz səbəbləri mətnlə müqayisə edin.**

## QARANQUŞUN XOCALI ARZUSU



Yaz idi. Uçuq-sökük bir evin eyvanına üç qaranquş qondu. Xeyli vaxt keçdi. Bala qaranquşlardan birinin səbri tükəndi:

– Ay ana, biz burda niyə durmuşuq? Gəl uçub gedək evimizə. Yorulmuşam, acmışam.

Ana qaranquş ağlamağa başladı:

– Elə bura bizim öz evimizdir, ata-baba yurdumuzdur.

Bala qaranquşlar çaşıb-qaldılar:

– Ana, axı burda bütün evlər dağılıb. Heç kim yoxdur.

Ana qaranquş dərindən ah çəkib danışmağa başladı:

– Bura Xocalı şəhəridir. Bir vaxtlar burada insanlar yaşayırdılar. Gözəl evlər, bağlar göz oxşayırdı. Biz hər yaz bu yerlərə uçub gələndə uşaqlar sevinirdilər. Bir-birinə gəlişimizi xəbər verərdilər. Bir yaz da uçub gələndə buraları belə vəziyyətdə gördük. Məcbur olub indi yaşadığımız yerə köçdük. Biz insanlarla bir yerdə yaşamağa öyrəşmişik. Hər il yazda ümidlə əvvəl bura gəlirəm. İnanıram ki, bir də gələndə burada əvvəlki kimi Xocalının sakinlərini, abad evlərini görəcəyəm. Yenə də biz onların, onlar da bizim gəlişimizə sevinəcəklər.

*Məhərrəm Mustafa*

**• Söz boğçası •**

- eyvan
- səbri tükənmək
- göz oxşamaq
- abad

**• Xatırla •**

- Məlumat almaq üçün sual cümləsindən, məlumat vermək üçün nəqli cümlədən istifadə olunur.

**B** **Qaranquşlar nə üçün Xocalıdan köçüb getdilər?**

**C** **Sizcə, Ana qaranquş, əslində, kimlərin arzu-istəklərini ifadə edir?**

**Ç** **"Xocalı" mətnini dinləyin. Aşağıda verilmiş sual sözlərindən istifadə etməklə Xocalıya aid üç sual cümləsi qurun.**

**Kim?** **Hara?** **Nə etdilər?**

3 A **Dərsliyin 30-cu səhifəsində verilmiş Azərbaycan xəritəsində Şuşa şəhərini tapın. Şuşa şəhərinin simvolu kimi nə verilmişdir?**

B **Mətni oxuyun. Şəkildə təsvir olunmuş gülün adını öyrənin.**

### ŞUŞANIN YARAŞIĞI



Həyatimizdə gözəl bir bağ var idi. Güllərin ətri, quşların səsi adamı valeh edirdi. Nənəm bu bağa “Mənim Şuşam” deyərdi. O, bir gün güllərə su verəndə kövrəlib ağladı:

– Kaş ki bağımızda xarıbülbül də olaydı. Şuşanın yaraşığı xarıbülbül idi.

Bir gün bağda idim. Qulağıma gözəl bir quş səsi gəldi. Bu, bülbül idi. Sevinə-sevinə nənəmi səslədim:

– Nənəcan, tez bura gəl! Bağımıza xarıbülbül gəlib.

Nənəm eyvana çıxıb təəccüblə dedi:

– Murad, sən nə danışırsan? Xarıbülbül bura hardan gəlib çıxıb?

– Bax, nənəcan, həmişə deyirdin ki, kaş bağımızda xarıbülbül olaydı. Bu da xarıbülbül. Gör necə cəh-cəh vurur!

– Ay mənim gözəl balam, xarıbülbül quş deyil, güldür. Buralarda bitmir. Xarıbülbülün vətəni Qarabağdır, Şuşadır.

Nənəm boynumu qucaqladı. Onun gözləri yaşardı.

– Nənə, ağlama. Mən inanıram ki, biz xarıbülbülə qovuşacağıq.

*Aysel Fazilqızı*

C **Nənə nəvəsinin dediyi sözlərə niyə təəccübləndi? Mətndə bu suala cavab olan hissəni tapıb yenidən oxuyun.**

Ç **Hansı şeir mətndəki əsas fikri ifadə edir? Fikrinizi əsaslandırın.**

Əzizinəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Baxın qanadlanan göyə,
Qaranquşa, qaz, ördəyə;
– Vətən, Vətən, Vətən, – deyə
Yenə qatar-qatar gəlir.

*Abdulla Şaiq*

D **Mətndə rənglərlə fərqləndirilmiş cümlələri sual cümləsinə çevirin. Bunun üçün cümlələrlə eyni rəngdə olan sual sözlərindən istifadə edin.**

**Harada?** **Nə?** **Necə?**

# Ümumiləşdirici təkrar

**4 A Şeiri oxuyun. Suallara cavab verin.**

Sularında üzür gəmi,
Qara nefti bulaq kimi.
Qucağında sıx buruqlar
Ucalıblar qatar-qatar.
Üstündə var polad şəhər,
Nə gözəldir bizim **...**

*İlyas Tapdıq*

- **Nöqtələrin yerinə uyğun gələn sözü artırıb son misranı dəftərinizdə yazın.**

**Araz** **Göygöl** **Xəzər**

- **Şair "polad şəhər" deyəndə nəyi nəzərdə tutur? Həmin şəhərin adını dəftərinizdə yazın.**

**B İzahları oxuyun. Sözlərlə uyğunlaşdırın.**

- Muzeylərdə nümayiş etdirilən əşya ...
- Tamaşa göstərilən, yarış keçirilən, konsert verilən yer ...
- Qədim əşyaların qorunduğu və nümayiş etdirildiyi yer ...

***arena***
***muzey***
***eksponat***

**C Hansı sözlər böyük hərflə yazılmalıdır?**

göl, şahdağ, yurd, xocalı, el-oba, məskən, şuşa, dəniz, göygöl, şamaxı, gəncə, diyar, xəzər, muzey, quba, şəhər, ölkə

**Ç Nöqtələrin yerinə uyğun gələn hərfi seçin və sözləri dəftərinizə köçürün.**

məş...çi (q/k) rəqi... (b/p) bayra... (q/x) üzü... (k/y) pola... (d/t)

**D Aşağıdakı təlimata uyğun olaraq Vətənin keşiyində duran əsgərə məktub yazın.**

- Əsgərə salamınızı bildirin.
- Özünüz haqqında məlumat verin.
- Sizi maraqlandıran məlumatları soruşun.
- Əsgərə arzu və istəklərinizi bildirin.
- Vətən mövzusunda rəsm çəkin.
- Məktubu zərfə qoyun.
- Zərfin müvafiq yerlərində ünvanları yazın.

Kimdən ____________
________________
________________

Kimə ____________
________________
________________

# 7 YAXŞI NƏDİR, PİS NƏDİR

**1 A** Şəkillərə baxın və gördükləriniz haqqında danışın.

- Obrazların hərəkətlərinə münasibət bildirin.
- Hansı obrazların hərəkətindən xoşunuz gəldi? Səbəbini izah edin.
- Hansı obrazı bəyənmədiniz?







**B** Şəkillər əsasında "Şəngül, Şüngül, Məngül" nağılını danışın.



• Söz boğçası •

- caynaq
- taqət
- fədakar
- qısılmaq

**C** **Mətni oxuyun. Ana pişik və ana keçi obrazlarını müqayisə edin.**

## PİŞİK VƏ QARAQUŞ



Ana pişik və balaları ağacın altında dincəlirdilər. Bu vaxt bir qaraquş aşağı endi. Balalardan birini caynağına aldı. Bu zaman ana pişik cəld onun üstünə atıldı.

Onların arasında ölüm-dirim savaşı başladı.

Pişik taqətdən düşürdü. Birdən balalarını xatırladı. Son qüvvəsini topladı. Var gücü ilə qaraquşun boğazından yapışdı.

Qaraquş anladı ki, fədakar anaya gücü çatmayacaq. Birtəhər canını qurtarıb havaya qalxdı.

Əldən düşmüş pişik öz balalarına yaxınlaşdı. Balalar xilaskar analarına qısıldılar.

**2 A** Şeiri oxuyun. Tanış olmayan sözləri dəftərinizdə qeyd edin.

## MƏSTAN VƏ BALALARI

Sevil bağa köçəndə
Məstanı da apardı.
Bağı görəndə Məstan
Gör nə tufan qopardı...
Gah ağaca dırmaşdı,
Gah divara dırmaşdı,
Gah damın üstə çıxdı,
Gah da çəpəri aşdı...
Qovdu ağ kəpənəyi,
Yoldu otu, çiçəyi...
Məstan təzə yerlərdə
Özünə yurd salmışdı.
Üç balası səbətdə
Yuxulayıb qalmışdı.

*Nigar Rəfibəyli*



**B** Tufan nədir? Tufan qopanda nə baş verir? "Məstan tufan qopardı" ifadəsini necə başa düşürsünüz?

**• Söz boğçası •**

- tufan
- çəpər
- yolmaq
- səbət

**C** Hansı şəkildəki təsvir şeirdə əks olunub?



**Ç** Şeiri öz sözlərinizlə nəql edin.

**3 A Mətnə çəkilmiş şəkillərə baxın. Sizcə, Məstanın şıltaqlığı nə ilə nəticələnəcək? Mətni oxuyun.**

## BAĞDAKI QUYU

Sevilgilin bağındakı tut ağacının altında su quyusu vardı. Quyunun suyu çoxdan qurumuşdu.

Məstan quyunun yanında atılıb-düşürdü. Birdən onun gözünə bir sərçə sataşdı. Sərçə ağacın budağına qonmuşdu. Məstan sərçəni tutmaq istədi. Ağaca tullandı. Lakin mayallaq aşıb quyuya düşdü.

Sevil qışqırdı: – Kömək edin, Məstan quyuya düşdü!

Nənə deyindi: – Az atılıb-düşəydi.

Amma nənə ürəyində Məstanın halına acıdı.

Köməyə gələn qonşular quyunun başına yığışdılar.

**• Söz boğçası •**

- mayallaq aşmaq
- gözünə sataşmaq
- acımaq





**B Mətndəki hansı obraz şəkildə təsvir olunmayıb? Bu obraz haqqında nə deyə bilərsiniz?**

**C Nöqtələrin yerinə söz boğçasından uyğun gələn ifadələri seçərək cümlələri köçürün.**

*1. Əli idman dərsində ... .*

*2. Qarışqa yuvası babanın ... .*

*3. Səməd yaralı quşun halına ... .*

**Ç Mətndə Məstan hansı heyvanın adıdır? Sizcə, nəyə görə bu söz böyük hərflə yazılır?**

**• Bunları bilməliyik •**

Heyvanlara verilən adların ilk hərfi həmişə böyük yazılır:

- *Nənəm Alagözü tövləyə saldı.*
- *Uşaqlar Toplanı çox sevirlər.*

**D Ev heyvanlarına verilən başqa hansı adları bilirsiniz? Həmin adları yazın.**

**4 A** **Dərsliyin 45-ci səhifəsindəki "Məstan və balaları" şeirini xatırlayın. Sonuncu iki misranı bir daha oxuyun. Sizcə, Məstan balalarını unutmuşdu?**

**• Söz boğçası •**
- kəndir
- sarılmaq
- cummaq

**B** **Mətni oxuyun, suallara cavab verin.**

## MƏSTANIN XİLASI



Sevil zənbilə ət və süd qoydu. Zənbilin ucuna kəndir bağladı və quyuya salladı. O, Məstanı çağırdı. Amma Məstan zənbilə tərəf baxmadı.

Bu zaman nənə irəli gəldi. O, qucağında Məstanın balalarını tutmuşdu. Nənə Ağca, Qaraca və Bozcanı zənbilə qoydu. Zənbili yenidən quyuya salladılar. Məstan zənbilə cumdu. Balalarına sarıldı. Qonşular kəndiri yuxarı dartdılar. Məstan və balalarını quyudan çıxardılar. Uşaqlar quyunun ağzını bağladılar.

**?**
- *Sevil zənbilə nə qoydu?*
- *Nə üçün Məstan birinci dəfə zənbilə tərəf baxmadı?*
- *Məstanın balalarını zənbilə kim qoydu?*

**C** **Məstan obrazını ana keçi və ana pişik obrazları ilə müqayisə edin.**

**Ç** **Şəklə baxın və mətnin sonuna cümlələr əlavə edin.**



**D** **Verilmiş şeir parçalarına uyğun gələn cümlələri mətndən seçin və dəftərinizə yazın.**

1. *Zənbilə ətlə südü*
   *Qoyub salladı Sevil.*
2. *Nə südə, nə də ətə*
   *Yaxın durardu Məstan.*
3. *Balalarını gördü,*
   *Cumub zənbilə girdi...*
4. *Nənə hər üç dəcəli*
   *Həmin zənbilə yığdı.*

**E** **Mətndəki obrazların adlarını əlifba sırası ilə yazın. Heyvan adlarının altından xətt çəkin.**

•fəsil• 2

# QARAGÖZÜN MACƏRASI

**1 A Heç ananızın sözündən çıxmısınız? Bu zaman nə baş verib?**

**B Şəkillərə baxaraq mətni oxuyun və tanış olmayan sözləri qeyd edin.**

## QARAGÖZ YUVANI TƏRK EDİR



Qaragöz yuvada tək idi. Yuxarıdan ağacın altında oynayan dovşanlara baxırdı. O da düşüb oynamaq istədi. Amma anasının sözlərini xatırlayıb ah çəkdi. Sonra yerdəki qozaları görüb öz-özünə dedi:

– Gedim, yuvaya qoza daşıyım. Onda anam heç nə deməz. Bəlkə də, məni tərifləyər.

Qaragöz yuvadan enmək istəyəndə sürüşdü. Yumbalana-yumbalana ağacdan xeyli aralandı. Bir kötüyə ilişib dayandı. Ayağa qalxıb ufuldadı. Elə bu vaxt gördü ki, Ayı gəlir. Tez kötüyün arxasında gizləndi.



Ayının əlində küp var idi. O, küpü bir kolun arasına qoyub öz-özünə dedi:

– Burada küpümü heç kim tapmaz. Balalarımı gətirim, doyunca yesinlər.

Bunu deyib Ayı oradan uzaqlaşdı.

Qaragöz kötüyün arxasından çıxdı. Öz-özünə düşündü: “Görəsən, bu küpün içində nə var?” O, pəncələri ilə küpün qulpundan yapışdı. Onun içinə baxmaq istədi. Bu zaman küp aşdı və içindəki bal yerə dağıldı...

**• Söz boğçası •**

- macəra
- ah çəkmək
- qoza
- kötük
- küp
- pəncə
- qulp

**C Mətnə çəkilmiş şəkil olmasa idi, Qaragözün sincab olduğunu necə müəyyən edərdiniz?**

**Ç Qaragöz hansı səhv hərəkətlərə yol verdi? Sizcə, onun bu hərəkətləri nə ilə nəticələnəcək?**

**2 A** **Şəklə baxın. Sizcə, Qaragöz küpü aşırandan sonra nə baş verəcək? Mətni oxuyun və söylədiyiniz fikirlərlə müqayisə edin.**

## AYI VƏ BALALARI

Qaragöz təəccüblə bala baxırdı. Birdən gördü ki, Ayı ilə balaları gəlir. Qaragöz cəld gizləndi.

Ayı dağılmış balı gördü. O, bərəlmiş gözləri ilə ətrafa boylandı. Var gücü ilə bağırdı:

**• Söz boğçası •**
- bərəlmək
- boylanmaq

– Mənim küpümdəki balı kim dağıdıb? Yəqin, bu, Tülkünün işidir. Axmaq Tülkü! Səni parça-parça edəcəyəm.

Balalar dağılmış balı yeməyə başladılar. Ayı isə Tülkünü axtarmağa getdi.

Bunu görən Qaragöz yavaşca oradan uzaqlaşdı.



**B** **Siz Qaragözün yerində olsa idiniz, bu vəziyyətdə nə edərdiniz?**

**C** **Doğru, yoxsa yanlış?**

1. *Qaragöz anasının sözünə baxmayıb yuvasından çıxdı.* ☺ ☹
2. *Ayı Qaragözü bala qonaq etmək istəyirdi.* ☺ ☹
3. *Qaragöz bilirdi ki, küpdə bal var.* ☺ ☹
4. *Qaragöz küpü aşırıb balı yerə dağıtdı.* ☺ ☹
5. *Ayı başa düşdü ki, küpü Qaragöz aşırıb.* ☺ ☹
6. *Qaragöz ayı balaları ilə birgə bal yedi.* ☺ ☹

**3 A** **Bir sirriniz olanda onu kimə deyirsiniz? Qaragözlə anasının söhbətini oxuyun. Onun keçirdiyi hisləri izah etməyə çalışın.**

## ANA İLƏ SÖHBƏT



Qaragözün anası onu yuvada gözləyirdi. O çox narahat idi. Birdən Qaragöz təngnəfəs yuvaya girdi. Anası soruşdu:

– Qaragöz, sən harada idin? Axı demişdim ki, yuvadan bayıra çıxma!

Balacanın qara gözləri yaşardı. O dedi:

– Bağışla, ana. Mən qoza yığmaq istədim.

Anası Qaragözü qucaqlayıb öpdü və dedi:

– Mənim sevimli balam. Sən ehtiyatlı olmalısan.

Qaragöz isə kədərli halda oturub fikrə daldı. Bunu görən anası soruşdu:

– Qaragöz, sənə nə olub? Niyə belə fikirlisən?

Qaragözü ağlamaq tutdu. O, anasına ürəyini açdı:

– Ana, mən pis iş görmüşəm. Ayının balını dağıtmışam. O isə elə bilir ki, bunu Tülkü edib. İndi gedib onu parçalayacaq.

– Hə... Bu heç yaxşı olmadı. Tülkünü xilas etmək lazımdır.

Ana ilə bala yuvadan çıxıb Ayının mağarasına tərəf yollandılar.

**• Söz boğçası •**

- təngnəfəs
- ürəyini açmaq
- mağara

**B** **Rollu oyun** **Qaragözün anası ilə söhbətini səhnələşdirin.**

**C** **Sözləri oxuyun. Onları hansı zərflərə qoymaq lazımdır? Hansı sözlər heç bir zərfə uyğun gəlmir?**

*tülkü, ayı, bal, azuqə, kötük, ana, kədər, xilas, yuva, ora, bayır, küp, fikir, iki, onlar*

Beş hərfi,
iki hecası olan
SÖZLƏR

Üç hərfi,
iki hecası olan
SÖZLƏR

**• Xatırla •**

Sözdə neçə sait varsa, bir o qədər də heca var.

Qa-ra-göz

**Ç** **Zərflərdəki sözləri sayın. Hansı misal sözlərin sayı arasındakı fərqi düzgün ifadə edir?**

A) 7 – 3 = 4 B) 7 – 4 = 3 C) 9 – 3 = 6

**4 A** **Siz heç səhvinizi etiraf etmisinizmi? Sizcə, bu, asandırmı?**

**B** **Mətni oxuyun və mətndən Qaragözün etirafını ifadə edən cümlələri müəyyənləşdirin.**

**Söz boğçası**
- etiraf
- nərildəmək
- and-aman eləmək
- əl saxlamaq
- cəsarət

### QARAGÖZÜN ETİRAFI



Qaragözlə anası meşə ilə gedirdilər. Birdən Ayının nəriltisini eşitdilər. Tez səs gələn tərəfə yönəldilər. Gördülər ki, Ayı Tülkünün boğazından yapışıb bağırır:

– Sən niyə mənim küpümü aşırmısan? Niyə balımı dağıtmısan?

Tülkü and-aman edirdi ki, o, balı görməyib. Qaragözün anası onlara yaxınlaşıb dedi:

– Ayı, əl saxla. Mənim balamın sənə sözü var.

Qaragöz cəsarətini toplayıb dedi:

– Mən... Mən... Balı mən dağıtmışam. Küpün içinə baxmaq istəyirdim. Əlim dəydi, küp aşdı. Bağışlayın. İstəyirsiniz, sizin üçün bal toplayım?

Ayı Qaragözə baxıb güldü:

– Sən bir bunun boyuna bax! Mənim üçün bal toplamaq istəyir. Amma, yaxşı ki, boynuna aldın. Yoxsa bu yazığın boğazını üzəcəkdim. Sənin cəsarətin xoşuma gəldi. Nə vaxt istəyirsən, mağarama gəl. Səni bala qonaq eləyərəm.

Ayı hardan biləydi ki, sincablar bal yemir.

*Şəhla Fərhadqızı*

**C** **Qaragözün hərəkətlərindən çıxış edərək onun xarakterini müəyyən edin.**

*1. Qaragöz küpü aşırdı.* — *A) rəhmlidir*
*2. Qaragöz Tülkünü xilas etmək istədi.* — *B) cəsarətlidir*
*3. Qaragöz günahını boynuna aldı.* — *C) dəcəldir*

**Ç** **Qruplarla iş** **“Qaragözün macərası” mətnini nəql edin.**

| | |
|---|---|
| *Birinci qrup:* | “Qaragöz yuvanı tərk edir” |
| *İkinci qrup:* | “Ayı və balaları” |
| *Üçüncü qrup:* | “Ana ilə söhbət” |
| *Dördüncü qrup:* | “Qaragözün etirafı” |

# MƏRHƏMƏT

**• Söz boğçası •**

- mərhəmət
- tövlə
- zingildəmək
- qoç
- zərbə

**1 A Şəkillər üzrə hekayə qurub danışın. Balaca qızın hərəkətinə münasibət bildirin.**



**B Mətnin adına diqqət yetirin. Mətni oxuyun və başlığı izah edin.**

## ÇAĞIRILMAMIŞ QONAQ

Hava çox soyuq idi. Hər yan qarla örtülmüşdü.

Toplan azmışdı. O isinmək üçün yer axtarırdı. Gəlib bir həyətə çatdı. Həyətdə balaca bir qapı gördü. Qapıdan içəri girdi. Bu zaman hay-küy qopdu. Toyuqlar qaqqıldaşdılar:



– Hində küçüyün nə işi var?

Toplan gördü ki, onu dimdikləyirlər. Birtəhər canını qurtarıb çölə atıldı.

Zingildəyərək sağa-sola baxdı. Bu dəfə başqa bir qapı gözünə dəydi. Bu qapı bayaqkından hündür idi. Toplan özünü aralı qapıdan içəri saldı.

“Əcəb istidir”, – deyə sevindi. O özünə yer eləmək istədi. Birdən səs gəldi:



– Məəə... Bu nədir, ayağıma dolaşdı?

Elə bu vaxt Toplanın kürəyinə zərbə dəydi. O diyirlənib qarın üstünə düşdü...

**C** **Şəkillərdə gördüyünüz hansı obrazların mətndə adı çəkilmir?**

**Ç** **Nöqtələrin yerinə hərəkət bildirən sözlər yazmaqla cümlələri köçürün.**

*qaqqıldamaq, miyoldamaq, zingildəmək, dimdikləmək, mələmək*

*1. Cücələr yemi ... .*
*2. Küçük qorxudan ... .*
*3. Toyuq ucadan ... .*
*4. Keçi çobanı görüb ... .*
*5. Pişik divanda oturub ... .*

**2** **A** **Sizcə, nə üçün heyvanlara qayğı göstərmək lazımdır?**

**B** **Şəkillərə baxın və Toplan haqqında mətnin davamını təxmin edin.**

Hər yerdən qovulan Toplan əlacsız qaldı. Kor-peşman həyətdəki evə yaxınlaşdı. Pəncərənin qarşısındakı skamyaya dırmaşdı.

Evdən xörək iyi gəlirdi. Toplan pəncərədən içəri boylandı. Divanda iri bir pişik uzanmışdı. Toplanın ona paxıllığı tutdu.

Ürəyində fikirləşdi: "Kaş onun yerində olaydım..."

Toplanı görən pişik tüklərini qabartdı. Onun üstünə cummaq istədi. Toplan qorxub qaçmaq istədi. Elə bu zaman qapı açıldı. İçəridən bir oğlan çıxdı. O, Toplanı görüb dedi:

– Vay, vay, nə yaman islanmısan?! Yəqin, acsan. İndi səni yedizdirərəm. İsinərsən.

Sonra pişiyə acıqlandı:

– İpək, sən niyə tüklərini qabartmısan? Bilmirsən ki, qapıya gələn qonağı qovmazlar?..

*Həbibə Zeynalova*

**• Söz boğçası •**

- əlacsız
- kor-peşman
- skamya
- qabartmaq





**C** **Hekayədə hansı obrazlar var? Baş qəhrəman kimdir?**
**Obrazlara münasibətinizi bildirin. Kimdən daha çox xoşunuz gəldi?**

**3 A** **“Qaranquşun Xocalı arzusu” mətnini xatırlayın. Qaranquşlar nə üçün Xocalıdan köçüb getmişdilər?**

**B** **Sizcə, niyə bu quşlar insanlara yaxın yerdə yaşayırlar? Mətni oxuyun, təxmin etdiyiniz fikirlərlə mətndəki əsas fikri müqayisə edin.**

## ANA QARANQUŞ

**Söz boğçası**
- sığınmaq
- vahiməli
- əldən düşmək
- didik-didik
- haray salmaq

1 Bir qaranquş hündür bir ağacın başında yuva qurmuşdu. O hər gün uzaqlara uçur, balalarına yem gətirirdi.

2 Günlərin birində yenə qaranquş yem axtarmaq üçün yuvasından uçdu. Qayıdanda gördü ki, vahiməli, qanadlı bir ilan yuvaya tərəf sürünür. Ana qaranquş haray saldı: “Uçun, uçun, balalarım, ilan sizi yeyəcək!”



3 Körpə qaranquşlar havaya atıldılar. İlan da onların arxasınca havaya qalxdı. Ana gördü ki, ilan balalara çatacaq. O, var gücü ilə qışqırdı: “Yaxınlıqdakı evin qapısı açıqdır, tez olun, içəri girin!”

4 Ana qaranquş ilanla vuruşmağa başladı. Döyüşə-döyüşə evə yaxınlaşdı. Ev sahibi onları gördü. Dəyənəklə ilanı vurub yerə saldı.



5 Qaranquş tamam əldən düşmüşdü. Tükləri didik-didik olmuşdu. O, üzünü balalarına tutub dedi: “Mən sizə deyirəm. Siz də öz balalarınıza tapşırın. Yuvanızı insanlar yaşayan yerdə qurun”.

6 O vaxtdan qaranquşlar insanlara sığınıblar. Yuvalarını evlərin lap yaxınlığında qururlar.

**C** **Hansı sualın cavabı mətndəki əsas fikri ifadə edir?**

*A) İlanlar necə uçurlar?*
*B) Nəyə görə qaranquş evlərdə yuva qurur?*
*C) Qaranquş yuvasını necə qurur?*

**Ç** **Şəkillər mətnin hansı hissələrinə uyğundur?**

**• Bunları bilməliyik •** **ABZAS NƏDİR?**

Nağıl, hekayə mətnləri abzaslara bölünür. Hər abzasda yeni fikir ifadə olunur.

**D** **"Ana qaranquş" mətnində neçə abzas var? 5-ci abzasda nədən danışılır? Neçənci abzasda qaranquş ilandan xilas olur?**

**4** **A** **Şeiri oxuyun. Şeirin başlığını hansı obraza aid etmək olar?**

## MƏRHƏMƏTLİ QIZ

Velosiped sürərkən
Gülçin yaman yıxıldı.
Yerə elə dəydi ki,
Dizi, qolu cızıldı.

Nərmin durub bayaqdan
Ona tərəf baxırdı.
Gülçin yıxılan kimi
Özün ona çatdırdı.



Kömək etdi Gülçinə –
Onu yerdən qaldırdı.
Evdən tənzif gətirib
Dizin, qolun sarıdı.

Gülçin ona ürəkdən:
"Nərmin, çox sağ ol, – dedi.
– Sən mərhəmətli qızsan,
Gəl dost olaq", – söylədi.

*Şəhla Fərhadqızı*

**B** **Şəkillərlə şeirin bəndlərini uyğunlaşdırın.**



**C** **Suallara cavab verin.**

- "Mərhəmətli qız" şeiri neçə bənddən ibarətdir?
- Hər bənddə neçə misra var?
- Neçənci bənddə Gülçinə yardım edildi?
- Neçənci bənddə Gülçin Nərminə təşəkkür etdi?

**Ç** **Üçüncü bənddəki hansı söz aşağıda verilən izaha uyğun gəlir?**

*Yaranı sarımaq üçün nazik pambıq parça*

•fəsil• 4

# DOSTLUQ

**1 A** **Şəkillərdə təsvir olunmuş heyvanlar haqqında bildiklərinizi danışın.**






**B** **Mətni oxuyun. Heyvanlar haqqında əldə etdiyiniz yeni məlumatları dəftərinizdə qeyd edin.**

## YÖNDƏMSİZ TİMSAH

Timsah tək darıxırdı. Çaydan sahilə çıxdı. Dəvəquşunu görüb ona yaxınlaşdı. Dəvəquşu uzun taxta parçasının bir tərəfində oturmuşdu. Timsah quyruğunu taxtanın o biri başına qoydu. Dəvəquşu tappıltı ilə yerə düşdü. Timsah ona kömək etmək istədi. Dəvəquşu acıqla dedi:

– Nə yöndəmsizsən, bu uzunluqda quyruq olar? Məndən uzaq dur.

Sonra isə hoppana-hoppana daşların üstü ilə çayın o biri sahilinə keçdi. Birdən Timsah Zürafəni gördü. Zürafə ağacdan ərik yeyirdi. Timsah ona yaxınlaşanda Zürafə var gücü ilə bağırdı:

– Yavaş ol da... Ayağımı əzdin ki! Bu boyda da ayaq olar?!

Zürafə bunu deyib çayın o biri üzünə keçdi.



Timsah lap pərt oldu. Kədərlə ətrafa boylandı. Gördü ki, Kenquru ilə balası çiçək yığır. Timsah sevincək onlara tərəf gəldi.

Kenquru qışqırdı:

– Ehtiyatlı ol!

Amma gec idi. Timsah onların gül səbətini əzmişdi.



– Sən nə kobudsan, bu boyda da qarın olar? Bizdən aralı dur.

Hirslənmiş Kenquru balasını kisəsinə qoydu. Daşların üstü ilə hoppanaraq çayı keçdi.

**C** **Heyvanlar Timsahı hansı xüsusiyyətlərinə görə sevmirdilər? Onların Timsaha münasibəti haqqında nə deyə bilərsiniz?**

**Ç** **İzahları oxuyun. Hər bir izahın aid olduğu heyvanı tapın. Mətnə çəkilmiş şəkillərdən və bildiklərinizdən istifadə edərək izahları genişləndirin.**

1. *Boynu çox uzundur. Meyvə yeyir.*
2. *Qarnı, ayaqları böyükdür, quyruğu uzundur.*
3. *Balasını kisəsində gəzdirir.*
4. *İti qaçır. Uça bilmir.*

**2 A** **"Tülkü və Leylək" nağılını xatırlayın. Sizcə, Leylək pisliyə yaxşılıqla cavab versə idi, onların dostluğu alınardımı?**

**B** **Şəklə baxın. "Yöndəmsiz Timsah" mətninin davamını təxmin edin. Mətni oxuyub öz təxminlərinizlə müqayisə aparın.**

Timsah əzilmiş güllərin yanında oturdu. O çox qəmgin idi. "Heç kəs məni sevmir. Axı mən niyə bu qədər yöndəmsizəm?.." Bu fikirlər Timsaha rahatlıq vermirdi.

Birdən hava qaraldı. Göy guruldadı, şimşək çaxdı. Leysan yağmağa başladı. Çay daşdı. Timsahı bəyənməyən dostlar çayın o biri sahilində qaldılar. Onlar əlacsız halda Timsahdan kömək istədilər.

Timsah dərhal çaya yaxınlaşdı. Bir sahildən o biri sahilə uzandı. Heyvanlar bir-bir onun üstünə çıxıb çayı keçdilər.

Kenquru dedi:

– Çox sağ ol, əziz dost. Biz çox şadıq ki, sənin kimi ayaqları böyük, quyruğu uzun dostumuz var.

Timsah gülümsədi. O çox xoşbəxt idi...

*Şəhla Fərhadqızı*



**• Söz boğçası •**

• leysan • sahil

**C** **Mətnin ikinci abzasında baş verən təbiət hadisələrini sadalayın. O biri sahilə keçmiş heyvanlar niyə geri qayıda bilmədilər?**

**Ç** **Hansı cümlə mətnin sonuna uyğun gəlir?**

*A) Dadlı yem tapmışdı.*
*B) Dostları onu xilas etmişdi.*
*C) Axı bu qədər dost qazanmışdı.*

**D** **Verilmiş planda "Yöndəmsiz Timsah" mətnindəki hadisələrin ardıcıllığı pozulmuşdur. Ardıcıllığı bərpa edin və mətni plan əsasında nəql edin.**

*A. Kenqurunun Timsaha acıqlanması*
*B. Timsahın heyvanlara köməyi*
*C. Timsahın Dəvəquşu ilə görüşü*
*Ç. Çayda daşqın*
*D. Dost axtaran Timsah*
*E. Zürafə və Timsah*

• Xatırla •

Mətnin planı hadisələrin ardıcıllığına uyğun qurulur.

**3 A** **"Yaxşılıq et ki, yaxşılıq görəsən" cümləsini necə başa düşürsünüz? Şəklə baxın. Sizcə, ağac oğlanın yaxşılığına necə cavab verəcək?**

## AĞACIN TƏŞƏKKÜRÜ

• Söz boğçası •
- çat-çat
- hayına çatmaq

Ağacın dibindəki
Torpağa bax, çat-çatdır.
Nə yaxşı ki tez gördüm,
Onun hayına çatdım.

Bir vedrə su apardım,
Tökdüm, ləzzətlə içdi.
Budağından almalar
Qopub vedrəmə düşdü.

Necə gözəldir ətri,
Necə şirindir dadı.
Pay apardığım qabı
Ağac boş qaytarmadı.

*Rafiq Yusifoğlu*



**B** **Şeiri öz sözlərinizlə nəql edin.**

**C** **Şeirlə bağlı suallara cavab verin.**

- Şeirdə neçə bənd var?
- Hər bənddə neçə misra var?
- Hər misrada neçə heca var?

**Ç** **Şəkillərə baxın və dərslikdə oxuduğunuz mətnləri xatırlayın. "Yaxşılıq et ki, yaxşılıq görəsən" fikrini hansı mətnlərə aid etmək olar? Seçiminizi əsaslandırın.**









**D** **Qruplarla iş**

**Verilmiş şeir parçasını müzakirə edin və sualı cavablandırın.**

## "SAĞ OL" DEDİ

*Birinci qrup:*

Əsdi külək, yağdı yağış,
Çay yağışa "sağ ol" dedi.

**Sual:** – Nə üçün çay yağışa
"sağ ol" dedi?

*İkinci qrup:*

Yolçu yola kölgə salan
Bir palıda "sağ ol" dedi.

**Sual:** – Nə üçün yolçu palıda
"sağ ol" dedi?

*Üçüncü qrup:*

Yandı ocaq, getdi soyuq,
İnsan oda "sağ ol" dedi.

**Sual:** – Nə üçün insan oda
"sağ ol" dedi?

*Dördüncü qrup:*

Söylə görüm, bəs sənə kim
Bu dünyada "sağ ol" dedi?

**Sual:** – Hansı işlərinizə görə
sizə "sağ ol" deyiblər?

*Rafiq Yusifoğlu*

# Ümumiləşdirici təkrar

**4 A** **Mətni oxuyun və sualları cavablandırın.**

### YERİYƏN PAPAQ

Ceyhunla Lalə oynayırdılar. Xallı pianonun yanında idi.

Bu zaman nə isə tappıltı ilə yerə düşdü. Yerə düşən papaq idi.

Ceyhun papağı götürmək istədi. Əlini uzadanda papaq yeriməyə başladı. Uşaqlar çox qorxdular. İlk dəfə idi ki, yeriyən papaq görürdülər.

Ceyhun qorxa-qorxa papağı qaldırdı. Papağın altındakı Xallı idi.



?
- *Mətndə neçə abzas var?*
- *Neçənci abzasda qəribə hadisə baş verdi?*
- *Mətnə çəkilmiş şəkil neçənci abzasa aiddir?*

**B** **Verilmiş sözləri yaxınmənalı qarşılığı ilə uyğunlaşdırın.**

| | | |
|---|---|---|
| 1 | cəsur | A. qəddar, mərhəmətsiz, insafsız |
| 2 | dürüst | B. rəhmli, ürəyiyumşaq |
| 3 | zalım | C. düzgün, vicdanlı, doğruçu |
| 4 | mərhəmətli | Ç. igid, qoçaq, qorxmaz, ürəkli |

**C** **Hansı sözlər həmişə böyük hərflə yazılır?**
**Həmin sözləri əlifba sırası ilə yazın.**

*Şəngül, İpək, Məstan, Ağca, Kenquru, Bozca, Timsah, Qaranquş, Ayı, Toplan, Qaragöz, Xallı, Dəvəquşu.*

**Ç** **Bildiyiniz nağıllardan birini nəql edin. Obrazlara münasibət bildirin. Bunun üçün aşağıdakı sözlərdən uyğun gələnləri seçin.**

*mərhəmətli, kobud, nəzakətli, qayğıkeş, sədaqətli, paxıl, lovğa, əliaçıq, dürüst, zalım, acgöz, qoçaq, qorxaq, cəsur*

# 8 DÜNYANI KƏŞF EDİRƏM



**1 A** Şəkillərə baxın və suallara cavab verin.

- Sizcə, bu bölmədə nə haqda danışacağıq?
- Şəkillərdə diqqətinizi nə cəlb etdi? Bu barədə nə öyrənmək istəyərdiniz?











**B** **Müəllimin oxuduğu mətni dinləyin. Şəkillərdə Orxanın yaşadığı evi, Şirvanşahlar sarayını və İsmayıl əminin alaçığını göstərin.**







**C** **Mətni oxuyun. Mətnin hansı hissəsi şəkildə təsvir olunub?**

### AZIX MAĞARASI

Bu əhvalat lap çoxdan olub. O zaman insanlar ev tikməyi bacarmırdılar. Onlar çöldə, meşədə yaşayırdılar. Şaxtalı bir gün idi. İnsanlar soyuqdan qorunmaq üçün yer axtarırdılar. Onların arasında Domrul adlı balaca bir oğlan da var idi.

Birdən Domrul qayaların arasında yarıq gördü. Tez ata-anasını səslədi:

– Bura gəlin! Mağara tapmışam.

Domrul böyükləri gözləməyib mağaraya girdi. Elə bu vaxt onun qarşısına böyük bir ayı çıxdı. Domrul "azıx, azıx" qışqıra-qışqıra mağaradan çölə atıldı. O zaman ayıya "azıx" deyirdilər.



Ayı da onun dalınca mağaradan çıxdı. Nərildəyərək insanlara hücum etdi. Ancaq insanlar geri çəkilmədilər. İti uclu dəyənək və iri daşlarla ayını qovdular.

O gündən mağara insanların məskəni oldu. Həmin mağara bu gün də Azıx mağarası adlanır.

**• Söz boğçası •**

- kəşf
- yarıq
- alaçıq
- dəyənək
- qaya

**Ç** **Sizcə, hadisə ilin hansı fəslində baş verib: yayda, yoxsa qışda? Fikrinizi əsaslandırın.**

**D** Şəklə baxın və qədim insanlar haqqında danışın. Onlar nə geyinirdilər? Heyvanları necə ovlayırdılar?



**E** Siz qədim insanların yanında olsa idiniz, onlara nə öyrədərdiniz?

**2 A** Şəkillərə baxın. Oddan hansı məqsədlərlə istifadə olunur?







**B** Sizcə, insanlar odu ilk dəfə necə əldə ediblər? Mətni oxuyun və bu sualı cavablandırın.

## ODUN KƏŞFİ

Bir gün dəhşətli ildırım çaxdı. Meşə birdən-birə alovlanmağa başladı. İnsanlar qorxub mağarada gizləndilər.

Uzaqda görünən alov Domrulu çox maraqlandırdı. O, gizlicə meşəyə yaxın getdi. Bir neçə yanan budaq götürüb mağaraya gətirdi. Odun üstünə quru budaqlar atdı. İnsanlar tonqalın istisinə qızındılar. Bundan sonra tonqalı sönməyə qoymadılar. Gecələr növbə ilə keşik çəkir, tonqalın üstünə budaqlar atırdılar.

Bir gecə keşikçilər yatıb yuxuya getdilər və od söndü. Onda Domrul qabağına quru çör-çöp yığdı. İki daş götürüb onları bir-birinə vurmağa başladı. Daşlardan çıxan qığılcım quru çöpləri alışdırıb yandırdı. Hamı Domrulun ağlına heyran oldu.

**Söz boğçası**

- dəhşətli
- ildırım
- keşikçi
- çaxmaq
- çör-çöp
- qığılcım





**C** **Şəkillərə baxın. Sizcə, odun əldə edilməsi insanların həyatında hansı dəyişikliyə səbəb oldu?**






**3 A** **Domrulun həyatı haqqında mətnin davamını oxuyun. Tanış olmayan sözləri qeyd edin.**

**• Söz boğçası •**
- dərə
- qaya
- təpə
- əhliləşdirmək

## QOBUSTANDA

İllər ötdü. Azıx mağarasında insanların sayı çoxaldı. Onda Domrulun ailəsi yeni məskən tapmaq üçün yola çıxdı. Onlar xeyli gəzib Xəzər dənizinin sahilinə çatdılar. Burada çoxlu təpələr, dərələr, qayalar var idi. Dərəyə “qobu” da deyirlər. Ona görə də buranın adını “Qobustan” qoydular.

Domrulla atası qayalarda oxla heyvan ovlayırdılar. Onlar qayıq düzəltdilər. Qayıqla dənizə çıxır, balıq tuturdular. Sonra tələ qurub



heyvanları diri tutmağı öyrəndilər. Beləcə, keçi, at tutub onları əhliləşdirdilər. İndi ailənin hər gün əti, südü var idi.

Axşamlar ailə üzvləri ocağın ətrafında əl-ələ tutub rəqs edirdilər. Beləcə, onlar Qobustanda uzun müddət xoşbəxt yaşadılar.

*İradə İsmayılqızı*

**B** **Hansı şəkil mətnin məzmununa uyğun deyil?**





**C** **Səhv yazılmış sözləri düzgün yazaraq dəftərinizə köçürün.**

*ayilə, məsgən, balıx, qayıx, ocax, xöşbəxt*

**Ç** **Sözlərlə mənalarını uyğunlaşdırıb dəftərinizə yazın.**

| | |
|---|---|
| *1) mağara* | *A) İki təpə arasında dərin yer.* |
| *2) məskən* | *B) ocaqdan sıçrayan od zərrələri.* |
| *3) qığılcım* | *C) çomaq, ələğacı.* |
| *4) dayanək* | *Ç) insanın yaşadığı yer, yurd.* |
| *5) dərə* | *D) dağın, qayanın içinə doğru uzanan yarıq.* |

**1 – D** 2 – ? 3 – ? 4 – ? 5 – ?

**D** **Sual sözlərini uyğun ad bildirən sözlərlə əvəz edib cümlələri köçürün.**

1. *Mağaranı ilk dəfə* **kim?** *gördü.*
2. *Həmin mağara bu gün* **nə?** *adlanır.*
3. *Domrulgilin ailəsi* **harada?** *məskən saldı.*
4. *Qobustan* **harada?** *yerləşir.*

• Xatırla •

- **Şəxs** və **yer adları** həmişə böyük hərflə yazılır.

**4 A** **"Qobustana səyahət" mətninə qulaq asın.**
**Şəkillərə baxaraq suallara cavab verin.**

1. *Müəllim uşaqları hara apardı?*
2. *Əl-ələ tutan insan rəsmləri bizə hansı rəqsi xatırladır?*
3. *Qavaldaş haqqında müəllim hansı məlumatları verdi?*



**B** **Şeiri oxuyun. Qobustan qayalıqlarındakı qədim rəsmlərə baxın. Onları oxuduğunuz mətnlərin məzmunu ilə müqayisə edin.**

## QOBUSTAN

Qobustanı gəzirəm
Babaların iziylə.
Qobustanı görürəm
Balaların gözüylə.

Rəsmlərə baxıram:
Ovçular ov axtarır,
Balıqçı qayığını
Xəzər dalğalandırır.



Rəqs edən insanların
Əksi var qayalarda.
Daş kitaba yazılan
Tarixi kim unudar?!

Gözləyirəm yenə də
Səslənsin qavaldaşı.
İstəyirəm, dillənsin
Elimin daş yaddaşı.

*Laman Həsənli*

**C** **Qruplarla iş**

**Aşağıda verilmiş məlumatları bu fəsildə oxuduğunuz mətnlər üzrə qruplaşdırın.**

## QOBUSTAN HAQQINDA MƏLUMATLAR

*1. Qobustan Xəzər dənizinin sahilində yerləşir.*
*2. Qədimdə burada insanlar rəqs edirdilər.*
*3. Heyvanları əhliləşdirirdilər.*
*4. Heyvanları ovlayırdılar.*
*5. Balıqçılıqla məşğul olurdular.*
*6. “Qobustan” sözü “qobu” sözündən yaranmışdır.*
*7. Qobustanda qavaldaş adlanan iri daşlar var.*
*8. Qobustanda qədim ocaq yerləri indiyə kimi qalır.*

*1-ci qrup:* *“Qobustanda” mətni*
*2-ci qrup:* *“Qobustan” şeiri*
*3-cü qrup:* *“Qobustana səyahət” (dinləmə mətni)*

**1 A** **Aşağıdakı qida məhsullarının adlarını lövhədə yazın. Siyahını ümumi başlıqla adlandırın.**




**B** **Mətni oxuyun. Şəkildə mətnin hansı hissəsi təsvir olunub?**

## ƏKİNÇİ VƏ CANAVAR

*(Özbək nağılı)*

Bir kəndli zəmidə taxıl biçirdi. Yorulub əldən düşdü. Oturub dincəlmək istədi. Çox ac idi. Bağlamasını açıb yeməyə başladı. Elə bu vaxt meşədən bir Canavar çıxdı. Gördü ki, kolların yanında bir kəndli oturub nəsə yeyir. Canavar ona yaxınlaşdı və soruşdu:

– Nə yeyirsən?

– Çörək, – deyə kəndli cavab verdi.

– Mənə də bir az ver, dadına baxım.

– Buyur!

Kəndli çörəkdən bir parça kəsdi və Canavara verdi. Çörək Canavarın çox xoşuna gəldi. O dedi:

– Mən də hər gün çörək yemək istəyirəm. Onu necə tapa bilərəm? Bəlkə, sən bilirsən?

Əkinçi dedi:

– Yaxşı, mən sənə çörəyi əldə etməyin yolunu deyərəm.

**Söz boğçası**

- zəmi
- akinçi
- biçmək
- əldə etmək



**Ç** Mətnə uyğun olmayan şəkli tapın.







**Ç** Aşağıda yazılmış hadisələrin həqiqi (H), yoxsa xəyali (X) olduğunu bildirin.

| | | |
|---|---|---|
| *1. Əkinçi zəmidə taxıl biçirdi.* | (H) | (X) |
| *2. Canavar əkinçiyə yaxınlaşdı.* | (H) | (X) |
| *3. Canavar əkinçidən nə yediyini soruşdu.* | (H) | (X) |
| *4. Əkinçi çörək yeyirdi.* | (H) | (X) |
| *5. Canavar əkinçiyə çörəyi sevdiyini bildirdi.* | (H) | (X) |
| *6. Canavar əkinçi ilə söhbət etdi.* | (H) | (X) |

**D** Mətnin davamını təxmin edin. Sizcə, əkinçi çörəyi əldə etməyin yolunu canavara necə başa salacaq?

**2 A** Mətnin davamını oxuyun. Əkinçinin cavabını öz fikirlərinizlə müqayisə edin.

Əkinçi sözə başladı:

– Əvvəlcə yeri şumlamaq lazımdır...

– O saat çörək olacaq? – deyə Canavar əkinçinin sözünü kəsdi.

– Yox! Arxasına qulaq as. Torpağı şumladıqdan sonra onu yumşaltmaq, daş-kəsəkdən təmizləmək lazımdır...

– Bundan sonra çörək olar, hə?

– Tələsmə! Payızda toxumu səp. Qışda toxum qarın altında qalacaq. Yazda isə...



– Deməli, yazda çörək yeyə biləcəyəm?

– Bir dayan görək! Yazda taxıl göyərəcək. Ona su ver, alaq otlarından təmizlə, quşlardan qoru. Yayda isə...

– Vay-vay! Hələ qurtarmadı? Yox, yox! Daha bəsdir, ey insan! Görünür, mən çörək yeyə bilməyəcəyəm. Mən getdim.

Əkinçi güldü və dedi:

– Bəs sən elə bilirdin, çörək asanlıqla ərsəyə gəlir? Bilmirsən ki, işləməyən dişləməz?!



**C** Rollu oyun **“Əkinçi və Canavar” mətnini səhnələşdirin.**

**3 A** **Söz boğçasında verilmiş sözlərlə şəkilləri uyğunlaşdırın.**

• Söz boğçası •

*1) kombayn*
*2) sünbül*
*3) təndir*
*4) traktor*
*5) xəmir*
*6) dəyirman*

**Nümunə: *1* – b**




**B** **Aşağıdakı cümlələrə uyğun hərəkət bildirən sözlər artırın.**

*Traktor yeri ... .*
*Kombayn taxılı ... .*
*Dəyirmanda un ... .*
*Çörəkçi xəmiri ... .*
*Çörək sobalarda ... .*
*Çörək mağazalarda ... .*

**C** **Şəkillərə baxın və bizim dövrümüzdə çörəyi əldə etməyin yolları haqqında danışın.**

























**• Orfoqrafiya •**

| Doğru | Yanlış |
|---|---|
| sünbül | sümbül |
| kombayn | kambayn |

**Ç** **Cümlələri şəkillərin ardıcıllığına uyğun köçürün.**

- Dəyirmanda buğdadan un üyüdülür.
- Sobada çörək bişirilir.
- Kombaynlarla zəmilərdən taxıl biçilir.
- Çörək mağazadan alınır.
- Çörəklər mağazalara daşınır.
- Traktor torpağı şumlayır, toxum səpilir.
- Çörək süfrələrimizi bəzəyir.
- Sünbüllər yetişir.

**D** **Çörəyin ərsəyə gəlməsində iştirak edən peşə sahiblərinin adlarının ardıcıllığını müəyyən edin.**

*dəyirmançı, traktorçu, satıcı, kombaynçı, çörəkçi*

**4 A** **“Əkinçi və Canavar” mətninin son cümləsini bir daha oxuyun. İndi isə aşağıdakı mətni oxuyun və həmin cümləni mətnin uyğun hissəsinə əlavə edin.**

## ÇİL TOYUQ VƏ SİÇAN BALALARI

*(Rus nağılı)*



Bir evdə Çil Toyuq və iki siçan balası yaşayırdı. Bir dəfə Toyuq kökə bişirmək istədi. Siçanlara dedi:

– Sünbülü dəyirmana kim aparacaq?

– Biz yox, biz yox! – deyə siçanlar qışqırdılar və topu götürüb oynamağa qaçdılar.

Toyuq özü sünbülü dəyirmana apardı. Qonşuluqda yaşayan Sincab və Dovşan ona kömək etdilər. Toyuq dənləri üyütdü, dadlı kökələr bişirdi və dedi:



– Kökələr hazırdır. Onları kim yeyəcək?

– Biz, biz! – deyə siçanlar qışqırdılar.

Toyuq dedi:

– Yox, belə olmaz. Kim işləyibsə, kökələri də o yeyəcək!

Toyuq Dovşanı və Sincabı qonaq çağırdı.

Oturub ləzzətlə kökələri yeməyə başladılar.

Siçanlar isə baxa-baxa qaldılar.



**B** **Altından xətt çəkilmiş cümləni şəkillərin köməyi ilə genişləndirin.**

**C** **“Əkinçi və Canavar” ilə “Çil Toyuq və siçan balaları” mətnlərindəki obrazları müqayisə edin.**

•fəsil• 3

# CİZGİ FİLMLƏRİ

**1 A** **Hansı cizgi filmlərini xatırlayırsınız?**
**Ən çox sevdiyiniz cizgi filmini nəql edin.**

**B** **Necə olur ki, cizgi filmində heyvanlar danışırlar?**
**Mətni oxuyun və bu suala cavab tapmağa çalışın.**

**• Söz boğçası •**
- cizgi filmi
- aktyor
- canlanmaq

## CİZGİ FİLMLƏRİ NECƏ YARANIR?

Cizgi filmini yaratmaq çox çətindir. Bunun üçün əvvəlcə mətn hazırlanır. Daha sonra rəssamlar mətndəki obrazların şəkillərini çəkirlər. Lakin bununla iş bitmir. Axı filmdə bu şəkillər hərəkət etməlidir.

Filmdə şəkillər sanki canlanır. Heyvanlar və cansız əşyalar insan kimi hərəkət edir, gülür, ağlayır. Bunları təsvir etmək asan deyil. Bunun üçün çoxlu şəkil çəkmək lazım gəlir. İnanmırsınız? Aşağıdakı şəklə baxın. Qartal qanadını aşağı salır və qaldırır. Bunu təsvir etmək üçün rəssam doqquz şəkil çəkib.




İndi isə kompüter rəssamların köməyinə gəlir. Cizgi filmlərini kompüterin köməyi ilə yaradırlar.

Bəs necə olur ki, cizgi filmində heyvanlar və quşlar danışırlar?

Əslində, onların əvəzinə danışan aktyorlardır. Onlar hər heyvanın danışığını onun xarakterinə uyğun səsləndirirlər. Əlbəttə ki, filmə baxarkən biz bunu görmürük.

*Rafiq İsmayılov*



*aktyor* *obraz*



*aktyor* *obraz*

**C** **Aşağıda "Mikki Maus" filmindən siçanın bir hərəkəti və duruşu təsvir olunub. Onun hərəkətini və mimikasını təkrar edin.**




**Ç** **Nöqtələrin yerinə uyğun sözlər artırmaqla cümlələri tamamlayın.**
**Cizgi filmini yaratmaq üçün**

1. *... hazırlanır.*
2. *... şəkil çəkirlər.*
3. *... kompüterin köməyi ilə canlandırılır.*
4. *... heyvanların danışığını səsləndirirlər.*

**2 A** **Bu heyvanı tanıyırsınızmı?**
**Sizcə, bu heyvan karate döyüş hərəkətləri edə bilərmi? Aşağıdakı mətni oxusanız, bu suala cavab tapacaqsınız.**



### KUNQ-FU USTASI PANDA

Yəqin ki, bir çoxunuz "Kunq-fu ustası Panda" cizgi filminə baxmısınız. Yadınızdadırmı, uşaqların sevimlisi olan kök, yöndəmsiz Panda necə ustalıqla döyüşür? Gəlin görək bu film necə yaranıb.

**• Söz boğçası •**
- kunq-fu
- eskiz

Əvvəlcə rəssamlar kunq-fu ustalarının döyüş hərəkətlərini izləyiblər. Sonra bu hərəkətləri edən panda obrazı yaradıblar. Beləliklə, ilk eskizlər hazır olub.



Eskizlər bəyənildikdən sonra ağ-qara rəsmlər çəkilib. Burada hərəkət və üz cizgiləri dəqiq təsvir olunub.



Daha sonra şəkillər rənglənib.



Bundan sonra kompüterdə iş başlayıb. Beləliklə, Panda canlanıb və cizgi filmi yaranıb.

*Rafiq İsmayılov*

**B** **Aşağıda "Kunq-fu ustası Panda" cizgi filminin yaradılması ilə bağlı təlimat verilib. Təlimatda hansı cümlələrin yeri səhv düşüb?**

1. *Kunq-fu ustalarının hərəkətləri izlənir.*
2. *İlk eskizlər hazırlanır.*
3. *Eskizlər rənglənir.*
4. *Ağ-qara rəsmlər çəkilir.*
5. *Kompüterin köməyi ilə panda canlanır.*

**C** **Hər bir sözlə bağlı nümunəyə uyğun kart düzəldin:**

- eskiz
- canlanmaq
- kunq-fu
- kompüter

• Nümunə •

**aktyor – ad bildirən söz**

İzah: Teatrda, kinoda rol ifa edən şəxs.

Cümlə: Mən aktyor olmaq istəyirəm.

**3 A** **Şəkildəki cizgi filmlərinin əsas obrazları haqqında danışın.**



**B** **Heykəl şəklinə baxın. Sizcə, burada Mikki Mausun əlindən tutan adam kimdir?**



**C** **Mətni oxuyun.**
**Şəkildəki adam haqqında əsas məlumatları dəftərinizdə qeyd edin.**

### VOLT DİSNEY – MİKKİ MAUSUN YARADICISI



Çox-çox illər bundan əvvəl Amerikada Volt adlı balaca bir oğlan yaşayırdı. Soyadı Disney idi. O, şəkil çəkməyi çox sevirdi. Başqa sevimli məşğuliyyəti isə cizgi filmlərinə baxmaq idi. Doğrudur, o zaman filmlər səssiz və ağ-qara idi. Heç televizor da yox idi. Volt filmə baxmaq üçün kinoteatra gedirdi.

Zaman keçdi, Volt böyüyüb rəssam oldu. O qərara gəldi ki, səsli cizgi filmi çəksin. Bunun üçün əvvəlcə bir siçan obrazı yaratdı. Balaca olanda Volt da başqa uşaqlar kimi siçandan qorxurdu. Amma indi istəyirdi ki, bu balaca heyvanı bütün uşaqlara sevdirsin.

Beləliklə, yekəqulaq siçan – Mikki Maus yarandı. Filmdə Mikkinin sözlərini Volt özü səsləndirdi. Bu obraz tezliklə bütün uşaqların sevimlisinə çevrildi.

**Ç** **Hansı cümlə mətnin məzmununa uyğun deyil?**

A) *Əvvəllər filmlərdə obrazlar səssiz hərəkət edirdilər.*
B) *Volt uşaqlıqdan siçanları sevirdi.*
C) *"Mikki Maus" filmində Volt həm rəssam, həm də aktyor idi.*

**D** **Bəs siz cizgi filmi çəksə idiniz, hansı obrazı yaradardınız? Onun şəklini çəkin və düşündüyünüz cizgi filminin məzmununu danışın.**

**4 A** **Sizcə, nə üçün Disney filmlərinin əvvəlində bu qəsrin şəkli göstərilir?**








**B** **Mətni oxuyun və suallara cavab verin.**

## DİSNEYLƏND – DÜNYANIN BÜTÜN UŞAQLARI ÜÇÜN PARK

Bir dəfə Volt parkda gəzirdi. Burada o, gənc qadınla balaca bir uşaq gördü. Uşaq yenicə çəkdiyi rəsmi anasına göstərirdi.

Volt ana və uşağa yaxınlaşdı. Salam verib rəsmə baxmaq istədiyini söylədi. Uşaq çəkdiyi rəsmi Volta verdi. Bu, uşaqlarla dolu əyləncə parkının rəsmi idi. Oğlan öz rəsminə ad da qoymuşdu:

HAMI ÜÇÜN PARK

Volt uşağı təriflədi. Onun mahir rəssam olduğunu dedi. Uşaq və onun anası Volta təşəkkür etdi.

Volt gəzintiyə davam etdi. Uşaqlıq illərini xatırladı. Qonşu ailənin gözəl bağı və karuselləri yadına düşdü. Həmin gün Volt Disney uşaqlar üçün park tikdirməyi qərara aldı.

Bir neçə ildən sonra Disneylənd şəhərciyi öz qapılarını bütün uşaqların üzünə açdı.

*Nuriyə Rafizqızı*

**• Söz boğçası •**
- qəsr
- karusel
- mahir



**?**
- *Mətndə neçə abzas var?*
- *Şəkil hansı abzasa aiddir?*

**C** **Aşağıdakı cümlələri oxuyun. Onları hansı abzaslara əlavə etmək olar?**

I abzas: Gəzə-gəzə növbəti cizgi filmi haqqında düşünürdü.

II abzas: Rəsmdə çoxlu karusel, yelləncək əks olunmuşdu.

**Ç** **Rollu oyun** **Voltun uşaq və onun anası ilə söhbətini səhnələşdirin. Nəzakətli sözlərdən istifadə etməyi unutmayın.**

# KOSMOS

**1 A Şəkildə təsvir olunan varlıqlar haqqında məlumatları genişləndirib danışın.**



Mən ulduzam. Gecələr göydə parlaq nöqtə kimi görünürəm.



Mən Ayam. Yerin ətrafında fırlanıram.



Mən Günəşəm. Ətrafımdakı planetlərə işıq və istilik verirəm.



Mən raketəm. Aya və planetlərə yol açıram.



Mən Yer planetiyəm. Günəşin ətrafında fırlanıram.



Mən kosmonavtam. Raketlə kosmosa uçuram.

**B Şeiri oxuyun. Şairin arzularını öz sözlərinizlə danışın.**

## UÇUN AYA, ULDUZLARA!

Mənim kiçik ulduzlarım –
Oğullarım, şən qızlarım,
Mən bu gözəl kainatın
Sirlərini açmamışam,
Hələ Aya, ulduzlara
Uçmamışam.
Siz böyüyün,
Tez böyüyün!
Uçun Aya, Veneraya,
Boşluqları yara-yara
Yupiterə, ya da Marsa,
Yollar açın ulduzlara.

*Teymur Elçin*



**Söz boğçası**

- kosmos
- kosmonavt
- planet
- raket
- kainat

**C** **Şeirdə şair uşaqları hansı səma cisminə bənzədir? Səbəbini izah edin.**







**Ç** **Səma cisimlərinin adlarını nöqtələrin yerinə yazmaqla cümlələri dəftərinizə köçürün.**

1. *... işıq və istilik mənbəyidir.*
2. *Ay ... ətrafında fırlanır.*
3. *... gecələr göydə parlaq nöqtə kimi görünür.*
4. *Yer ... ətrafında fırlanır.*

**2 A** **Sizcə, insanlar niyə kosmosa can atırlar?**
**Mətni oxuyun və tanış olmayan sözləri qeyd edin.**

## KOSMOSU KƏŞF EDƏK

Göylərə uçmaq qədimdən bəri insanların arzusu olub. Buna görə də onlar "Uçan xalça" nağılını yaradıblar. Lakin zaman keçir, insanlar daim nə isə kəşf edirdilər. Beləcə, uçan xalçanı əvəz edən təyyarə kəşf olundu.

Yer planetindən uzaqda yerləşən səma cisimləri insanları çox maraqlandırırdı. Lakin təyyarə ilə Aya, ulduzlara çatmaq mümkün deyildi. Onları yalnız teleskop vasitəsilə daha yaxından müşahidə etmək olardı. Alimlər teleskopun köməyi ilə Günəşin ətrafında fırlanan digər planetləri də aşkar etdilər. Lakin Aya, başqa planetlərə uçmaq hələ də arzu olaraq qalırdı...



**• Söz boğçası •**
- səma cismi
- teleskop
- müşahidə
- aşkar etmək

**B** **Sizcə, insanların kosmosa uçmaq arzusu həyata keçdimi? Siz bu mətni necə davam etdirərdiniz?**

**C** **Kosmosla, uzaq səma cisimləri ilə bağlı sizi hansı suallar maraqlandırır?**

**3 A** **Mətni oxuyun.**
**Dünyanın ilk kosmonavtı haqqında məlumatları qeyd edin.**

## DÜNYANIN İLK KOSMONAVTI

Günlərin bir günü Yer üzünə bir xəbər yayıldı: insan kosmosa uçub. Kosmosu fəth edən bu insan Yuri Qaqarin idi. O, rus kosmonavtı idi. Qaqarin kosmik gəmi ilə iki saata yaxın Yer ətrafında dövr etdi. Sonra sağ-salamat Yerə qayıtdı.

Aya ilk ayaq basan insan isə amerikalı kosmonavt Nil Armstronq olub.

İndi insanlar uzaq planetləri də fəth etmək arzusundadırlar.



**• Söz boğçası •**
- fəth etmək
- dövr etmək
- skafandr
- kosmik gəmi

**B** **Yuri Qaqarinin şəklinə baxın. Kosmosa çıxan kosmonavtın geyimi skafandr adlanır. Sizcə, nə üçün kosmonavtlar skafandr geyinirlər?**

**C** **Şəkillərə diqqətlə baxın. Şəkil üzrə mətn qurub yazın. Mətnə ad verin.**



**Ç** **İndi isə bu şəklə baxın. Yusif getdiyi planetdə yadplanetli ilə qarşılaşıb. Yadplanetlini təsvir edin və hekayə qurub danışın.**



# Ümumiləşdirici təkrar

**4 A** **“Dünyanı kəşf edirəm” bölməsində hansı kəşflərlə tanış oldunuz? Bu kəşflərdən hansı daha çox xoşunuza gəldi? Nə üçün? Daha hansı kəşflərlə tanış olmaq istəyərsiniz?**

**B** **Aşagıdakı şəkillər bölmədəki hansı mövzulara uyğun gəlir?**






**C** **Nöqtələrin yerinə uyğun gələn sözləri seçin və  cümlələri tamamlayın.**

| | |
|---|---|
| İnsanlar ... ilə ayını ... qovdular.<br>Mağara onların ilk ... oldu.<br>Domrul ... sönməyə qoymadı. | mağara<br>dəyənək<br>məskən<br>tonqal |
| Torpağı ... şumlayır.<br>Zəmidə sarı  ...  yetişir.<br>Yetişmiş sünbülləri  ... biçir. | sünbül<br>kombayn<br>traktor |
| Rəssam obrazın ... hazırlayır.<br>Cizgi filmini ... səsləndirir.<br>Filmlər ... nümayiş etdirilir. | kinoteatr<br>eskiz<br>aktyor |
| İlk ... Yuri Qaqarindir.<br>Kosmonavtların geyimi  ... adlanır.<br>Səma cisimlərini... müşahidə edirlər. | skafandr<br>teleskop<br>kosmonavt |

*Qeyd: Dərslikdə verilmiş mətnlər dil və məzmun baxımından müvafiq yaş qrupuna uyğunlaşdırılmışdır.*
*Müəllifi göstərilməyən mətnlər dərslik müəllifləri tərəfindən yazılmışdır.*

*BURAXILIŞ MƏLUMATI*

*Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün*
*Azərbaycan dili fənni üzrə*
***dərslik***
*Tədris dili*
*(1-ci hissə)*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Ülkər Nurullayeva**<br>**Nuriyə Allahverdiyeva**<br>**İradə Bayramova**<br>**Aysel Xanalıyeva** |
| **Layihə rəhbəri** | **Rafiq İsmayılov** |
| İxtisas redaktoru | **Şəhla Zahidova** |
| Dil redaktoru | **Dilrüba Cəfərova** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssamlar | **Məzahir Hüseynov, Elmir Məmmədov** |
| Korrektor | **Aqşin Məsimov** |

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2020-001)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8386-0-2
Hesab-nəşriyyat həcmi 10,8. Fiziki çap vərəqi 12.
Səhifə sayı 96. Kağız formatı 57 × 90 $^{1}/_{8}$.
Şriftin adı və ölçüsü: Calibri, 16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ____. Tiraj: 162782. Pulsuz. Bakı – 2020.

Əlyazmanı yığıma verildiyi və çapa imzalandığı tarix: 24.07.2019

Çap məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş. A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
"Şərq-Qərb" ASC (Bakı ş. Aşıq Ələsgər küç., 17)

Pulsuz